2 dekabr 2022 №89 (1962)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

# Mədəni irsimizin dünya miqyasında növbəti təntənəsi

## Azərbaycanın qeyri-maddi mədəni irsi ilə bağlı daha 4 element UNESCO-nun siyahısına daxil edilib

UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin Mərakeş Krallığının Rabat şəhərində keçirilən (28 noyabr – 3 dekabr) 17-ci sessiyasında ölkəmiz üçün xüsusilə əlamətdar qərarlar qəbul olunub.

Azərbaycanın qeyri-maddi mədəni irsi ilə bağlı daha 4 element UNESCO-nun tərtib etdiyi dünya xəzinəsinə – "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na (Representative List of the Intangible Cultural Heritage of Humanity) daxil edilib.

Qeyd edək ki, Hökumətlərarası Komitənin 17-ci sessiyasında reprezentativ siyahıya təqdim edilmiş nominasiyalar arasında Azərbaycanın "Pəhləvanlıq, ənənəvi zorxana oyunları və idman növləri" milli nominasiyası, habelə ölkəmizin iştirakı ilə hazırlanan 3 çoxmillətli nominasiya vardı: "Baramaçılıq və toxuculuq üçün ənənəvi ipək istehsalı" (Azərbaycan, Əfqanıstan, İran, Tacikistan, Türkiyə, Türkmənistan, Özbəkistan), "Molla Nəsrəddin lətifələrinin şifahi ənənəsi" (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan, Özbəkistan) və "Çay mədəniyyəti: kimliyin, qonaqpərvərliyin və sosial əlaqələrin rəmzi" (Azərbaycan, Türkiyə).

Sessiyada bu nominasiyaların hər biri ilə bağlı müsbət qərar qəbul edilib.

Bu sıradan ilk olaraq Azərbaycan, Əfqanıstan, İran, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistanın birgə təqdim etdiyi "Baramaçılıq, ipəkçilik və toxuculuq üçün ənənəvi ipək istehsalı" elementi "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na salınıb.












Sözügedən nominasiya sənədi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyi və UNESCO üzrə Milli Komissiya, eləcə də Əfqanıstan, İran, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistanın birgə əməkdaşlığı şəraitində təqdim edilmişdi.

Sessiyada çıxış edən ölkəmizin UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev baramaçılıq, ipəkçilik və toxuculuq sənətinin Azərbaycan mədəniyyətində qədim tarixi kökə malik olduğunu bildirib, nominasiya faylının birgə verilməsində göstərilən dəstəyə görə Əfqanıstan, İran, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistana minnətdarlığını ifadə edib.

davamı səh. 2-də

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri təltif edilib

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviya Respublikasının sabiq prezidenti Vayra Vike-Freyberqa "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Prezident İlham Əliyev noyabrın 30-da bununla bağlı sərəncam imzalayıb.

Sərəncama əsasən, xanım Vayra Vike-Freyberqa Azərbaycan Respublikasının beynəlxalq müstəvidə əlaqələrinin inkişafına verdiyi töhfəyə görə təltif edilib.

Qeyd edək ki, Vayra Vike-Freyberqa 2012-ci ildən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədridir. Dekabrın 1-də onun 85 yaşı tamam olub.

## Azərbaycanla Tatarıstan arasında mədəni əməkdaşlıq müzakirə olunub

Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva Tatarıstan Respublikasının mədəniyyət naziri İrada Ayupova ilə görüşüb.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi, türk xalqlarını birləşdirən birgə layihələrin həyata keçirilməsi və xüsusi əhəmiyyətli tədbirlərdə qarşılıqlı iştirakın önəmi vurğulanıb.

Növbəti ildə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi və bu çərçivədə festivallarda iştirak, birgə kino günlərinin təşkili, mədəniyyət sahəsi ilə bağlı gənclər forumunun keçirilməsi müzakirə olunub.

səh. 3

## Şövkət səsinin sehrində...

### Unudulmaz sənətkarın 100 illik yubiley gecəsi




Bu il görkəmli müğənni, pedaqoq, Xalq artisti Şövkət Ələkbərovanın (1922-1993) anadan olmasının 100 illiyidir. Mədəniyyət ocaqlarında yubileylə bağlı tədbirlər təşkil olunur, unudulmaz sənətkarın yaradıcılığına nəzər salınır.

Dekabrın 1-də Heydər Əliyev Sarayında keçirilən gecə də Xalq artistinin xatirəsinə ehtiramın ifadəsi idi. Tədbir Mədəniyyət Nazirliyi, Heydər Əliyev Sarayı və M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının birgə təşkilatçılığı ilə gerçəkləşirdi.

Heydər Əliyev Sarayının "Əbədiyaşarlar" layihəsi çərçivəsində keçirilən gecədə mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, nazirliyin əməkdaşları, mədəniyyət və incəsənət xadimləri, sənətkarın ailə üzvləri və digər qonaqlar iştirak edirdilər.

Tədbirdən əvvəl jurnalistlərə açıqlama verən Şövkət Ələkbərovanın gəlini, Tofiq Quliyev adına 12 nömrəli onbirillik Musiqi məktəbinin direktoru Gülnarə Səfərova Xalq artistinin Azərbaycan musiqi sənətində qoyduğu izdən danışdı. Bildirdi ki, Şövkət xanım məlahətli səsi, özünəməxsus ifa tərzi, Azərbaycan qadınına məxsus gözəllik və nəcibliyi ilə xalqımız tərəfindən hər zaman sevilir: "O, çox gözəl ana və pedaqoq idi. Şagirdlərini çox sevirdi. Bugünkü konsertdə sənətkarın yetirmələri də çıxış edəcək".

Gecədə əvvəlcə Şövkət Ələkbərovanın ifasında "Axşam" mahnısının lent yazısı nümayiş olundu. Sonra Xalq artistləri Mənsum İbrahimov, Zülfiyyə Xanbabayeva, Brilliant Dadaşova, Aygün Bayramova, Əməkdar artistlər Aygün Mübariz, Firuzə İbadova, Aybəniz Haşımova, Nurlan Növrəsli, Arzu Əliyeva, həmçinin Ş.Ələkbərova adına 20 nömrəli Musiqi məktəbinin xoru (solist Ümidvar İsmayılov), ifaçılar Talıb İsgəndərli, Amil Həsənoğlu, Nigar Cəlilova, Nəsimi Məmmədov, Şövkət Sultanova, Cəlal Kərimov, Vəfa Vəzirova və Şaban Cəfərov çıxış etdilər.

Proqramda C.Cahangirovun "Qarabağ", "Zərif gülüşün", T.Quliyevin "Etibar", "Gül oğlum", "Azərbaycan", "Sən mənimsən, mən sənin", V.Adıgözəlovun "Bakı haqqında mahnı", R.Mirişlinin "Dalğalar", "Bir xumar baxışla", "Bir könül sındırmışam", F.Sücəddinovun "Şövkət", Emin Sabitoğlunun "Azərbaycan", eləcə də "Küçələrə su səpmişəm" və "Qaragilə" xalq mahnıları səsləndirildi.

İfaçıları Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin instrumental ansamblı müşayiət edirdi.

Gecə boyunca, həmçinin böyük ekranda unudulmaz sənətkarın pedaqoji fəaliyyəti haqqında məlumatlar, ifasından arxivdə saxlanılan lent yazıları, kinofilmlərdə səsləndirdiyi mahnılardan ibarət kollaj, görkəmli mədəniyyət və incəsənət xadimlərinin onun haqqında fikirləri və müğənninin Almaniya konsertindən (1990) videokadr nümayiş etdirildi.

Konsert proqramı tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

## Habil sənətinin işığı və ucalığı



Bu il Azərbaycan kamança ifaçılığı sənətində özünəməxsus yeri olan Xalq artisti, "Şöhrət" və "İstiqlal" ordenli sənətkar Habil Əliyevin (1927-2015) anadan olmasının 95 illiyidir.

Beynəlxalq Muğam Mərkəzində noyabrın 30-da görkəmli kamança ifaçısının yubileyinə həsr olunan tədbir keçirildi. Habil sənətinin vurğunları bu tədbiri çoxdan gözləyirdi.

Yazıçılar Birliyinin katibi, Əməkdar mədəniyyət işçisi İlqar Fəhminin aparıcılığı ilə keçən tədbir həm kövrək notlar, həm də mərhum sənətkarın xarakterinə məxsus baməzə, artıq lətifəyə dönmüş unudulmaz söhbətlərlə yadda qaldı. Habil Əliyev sənətinin ucalığı, kamança sənətimizə verdiyi töhfələrdən söz açıldı. Bildirildi ki, bənzərsiz ifası ilə ürəkləri fəth edən Habil Əliyev milli musiqi alətimiz kamançanı dünyada tanıdıb, muğam üçlüyünün tərkibində kamançanı ilk dəfə solo konsert aləti kimi təqdim etməyə nail olub. Kamançanın ifa imkanlarının, tembr zənginliyinin inkişaf etdirilməsində onun böyük xidmətləri var.

Ustad ifaçının sənət dostlarından tarzən, Xalq artisti Möhlət Müslümov, Əməkdar artist, kamançaçı Mirnazim Əsədullayev sənətkarla bağlı xatirələrini bölüşdülər. Bu xatirələr nə qədər həzin idisə də, bir o qədər də işıqlı idi. M.Müslümov dedi: "Tarzən olsam da, uşaqlıqdan Habil sənətinə heyran idim. Onun sənəti ifama da sirayət etmişdi. İllər keçdi, 23 yaşımda "Ay işığında" əsərini lentə yazdırdım. Bu ifamı Habil müəllim çox bəyənib özü mənə zəng etmişdi. Sonradan dəfələrlə qastrollarda olduq. Onunla hər bir görüş mənim üçün böyük bir məktəb, ustad dərsi idi. Onun verdiyi tövsiyələrə indi də əməl edirəm. Bu gün də Habil Əliyev sənəti yaşayır, kamança sənətimizin gənc davamçıları Habil məktəbini layiqincə davam etdirirlər".

davamı səh. 3-də

## Zəfər soraqlı teatr bayramı

Mədəniyyət Nazirliyi və "Teatro.az" sənət portalının birgə təşkilatçılığı ilə 25-30 noyabr tarixlərində keçirilən II "4.4" Qısa Tamaşalar Festivalı noyabrın 30-da başa çatdı.

"Şuşa İli"nə həsr olunan festivalın ilk üç günü haqqında ötən sayımızda bəhs etmişdik. Bu dəfə festivalın qalan üç gününün səhnə əsərləri, panel müzakirə, ustad dərsləri və bağlanış mərasimi barədə söz açacağıq.

Festivalın dördüncü günü (28 noyabr) münsiflər heyətinin bir gün əvvəl nümayiş olunan Füzuli Dövlət Dram Teatrının "Tənhalığın evi" (müəllif A.Elşadlı, rejissor N.Mirzəzadə), Azərbaycan Dövlət Pantomima Teatrının "Şinel" (N.Qoqol, C.Dadaşov) və Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının "Maneken" (F.Mustafa, R.Türkkan) tamaşalarının müzakirəsi ilə başladı. Müzakirədə münsiflər heyəti tamaşalar haqqında fikirlərini bölüşdülər. Gənc ekspert Fatimə Qurbanzadənin çıxışı da maraqla qarşılandı.

Daha sonra A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında Gəncə Dövlət Kukla Teatrının "Dərdlərimin çamadanı" (H.Ataxanlı, F.Paşayev), Dövlət Akademik Rus Dram Teatrında "Mühacirlər" (S.Mrojek, Ü.Abbas) tamaşaları oynanıldı. Müsabiqədənkənar proqram üzrə isə tamaşaçılar Akademik Musiqili Teatrda K.Marcanişvili adına Tbilisi Dövlət Akademik Teatrının təqdimatında L.Tolstoyun "Kreyser sonatası" və Azərbaycan Dövlət Pantomima Teatrında Ç.Aymatovun "Əsrə bərabər gün" romanının motivləri əsasında Ceyhun Dadaşovun quruluş verdiyi "Manqurt" tamaşalarını izlədilər.




Həmin gün "Dünya teatrı müasir dövrün qlobal problemləri kontekstində" mövzusunda panel müzakirə də təşkil olundu. Əməkdar incəsənət xadimi, professorlar İsrafil İsrafilov, Aydın Talıbzadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Laşa Çxartişvili, teatr tənqidçisi David Bukridze, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, Beynəlxalq Teatr Tənqidçiləri Birliyinin prezidenti Anara Yerkebay, teatr tənqidçisi və "The Theatre Times" beynəlxalq teatr portalının Rusiya üzrə məsul redaktoru Emiliya Dementsova çıxışları ilə qeyd olunan problemin bu günü və gələcəyindən söhbət açdılar.

davamı səh. 2-də

### Milli Kitabxanada Qəzənfər Paşayevin 85 illik yubileyi



səh. 2

### Aşqabadda keçirilən beynəlxalq festival-konfransda ölkəmiz də təmsil olunub

səh. 8



### İstiqlal şairinin 130 illiyi ilə bağlı musiqili gecə

səh. 5

№89 (1962)
2 dekabr 2022
www.medeniyyet.az

# Zəfər soraqlı teatr bayramı

## II "4.4" Qısa Tamaşalar Festivalı başa çatdı

*əvvəli səh. 1-də*

Noyabrın 29-da Azərbaycan Dövlət Kukla Teatrında bu teatrın "Zəfər zəngi" (Z.Xəlil, Q.Məsimov) və Salyan Dövlət Kukla Teatrının "Sülh naminə birləşək" pantomima (müəllif və rejissor L.Hüseynova), Akademik Milli Dram Teatrında isə "Səhnə" teatrının "Qurd əfsanəsi" (X.Əliyev, N.Ağayev) tamaşaları teatrsevərlərə təqdim olundu.

Festivalın müsabiqədənkənar proqramı üzrə isə hər ikisi birhissəli fars olan səhnə nümunələri – Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının "Mən, sən, o və telefon" (Anar, Ə.Ələkbərov) və Tbilisi Dövlət Akademik Teatrının "Kreyser sonatası" (L.Tolstoy, L.Tsuladze) tamaşaları nümayiş olundu.

Festivalın sonuncu günü daha çox ustad dərsləri, müzakirələrlə yadda qaldı.

Ötən günün tamaşa müzakirələrinin ardınca gürcüstanlı tanınmış teatr mütəxəssisləri, beynəlxalq teatr festivalları üzrə təşkilatçılar Yekaterina Mazmişvili və Nutsa Burjanadzenin moderatorluğu ilə "Festival strukturu: çağırışlar, vəzifələr və perspektivlər" mövzusunda ustad dərsi reallaşdı.

Tbilisi Dövlət Akademik Teatrının bədii rəhbəri Levan Tsuladzenin "Qafqaz tabaşir dairəsi" mövzusunda ustad dərsi də iştirakçılar tərəfindən böyük maraqla qarşılandı.

Sonra festivalın təntənəli bağlanış və qaliblərin mükafatlandırılması mərasimi oldu.






### İlk festivalın uğuru onun ənənə halı almasına rəvac verdi

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov bir həftə davam edən sənət bayramı münasibətilə bütün teatrsevərləri təbrik etdi, belə layihələrin davamlı olmasının əhəmiyyətini vurğuladı. Bildirildi ki, ötən ildən keçirilən festivala böyük maraq var: "Festivalın məqsəd və məramı şanlı Zəfərimiz, 44 günlük haqq savaşımızı ehtiva etməklə onun sənət vasitəsilə əbədiləşdirilməsinə nail olmaqdır. Teatrlarımız bu işə öz töhfəsini verdi və biz Qələbəmizdən ilhamlanaraq ona "4.4" adını verdik. Pandemiyanın bir çox sahələr kimi mədəniyyətə, teatra mənfi təsirlərini aradan qaldırmağa hesablanan bu layihəmiz ötən il də yüksək səviyyədə reallaşdı və pandemiyanın yaratdığı məcburi fasilədən sonra teatr prosesinin canlanmasına vəsilə oldu. Festival regionlarda fəaliyyət göstərən teatrlarımızı da stimullaşdırmağa, onlara paytaxtda, irimiqyaslı festivalda öz imkanlarını nümayiş etdirməyə şərait yaratdı. İlk festivalın uğuru onun ənənə halı almasına rəvac verdi. Festivalın əsas özəlliyi həm də onun artıq beynəlxalq müstəvini əhatə etməsidir. Festivala xaricdə yaşayan azərbaycanlı teatr mütəxəssislərinin də cəlb olunması xüsusilə əhəmiyyətlidir".

"Teatr hamımızın sevdiyi məkandır. O ən yaxşı tərbiyə ünvanıdır və bu mənada teatr daim təbliğ olunmalıdır", – deyən Anar Kərimov festivalın öz məqsədinə nail olduğunu və qısa zamanda diqqəti cəlb etdiyini bildirdi. Nazir festival iştirakçılarını və qalibləri təbrik edərək onlara səhnə sənətimizin tərəqqisi və daha geniş auditoriyaya inteqrasiyası yolunda uğurlar arzuladı.

Festivalın münsiflər heyətinin sədri Əməkdar incəsənət xadimi, professor İsrafil İsrafilov, üzvlərdən Xalq artisti, Türkiyə Çukurova Universiteti Dövlət Konservatoriyasının professoru Cahangir Novruzov, Əməkdar incəsənət xadimləri – professor Aydın Talıbzadə, rejissor Mehriban Ələkbərzadə, professor Əli Əmirli, festivalın art-direktoru, teatrşünas Elçin Cəfərov və digər çıxışçılar da sənət bayramının təşkilatçılarına və iştirakçılarına təşəkkür etdilər.

Çıxışlardan sonra müxtəlif nominasiyalar üzrə qaliblərin mükafatlandırılması başladı. İlk olaraq "Ən yaxşı aktrisa" nominasiyasında Dövlət Gənc Tamaşaçılar Teatrının aktrisası, "İnanıram" monotamaşasının ifaçısı Zemfira Əbdülsəmədova qalib elan olundu.

Sonra tamaşaçılar "Münsiflərin rəğbəti"ni qazanan (yeni nominasiya) Gəncə Dövlət Kukla Teatrının aktrisası, "Dərdlərimin çamadanı" monotamaşasının yükünü çəkən Zülfiyyə Əliyevanı alqışladılar.

"Gənc ekspertlərin seçimi"ndə isə Dövlət Pantomima Teatrının təqdim etdiyi "Şinel" tamaşasının rejissoru Ceyhun Dadaşova qalib oldu.

Festivalda iştirak edən müstəqil ekspertlər isə (Gürcüstan, Rusiya, Qazaxıstan) müsabiqədənkənar tamaşanı – Akademik Musiqili Teatrın "Anamın kitabı"nı (rejissor İ.Gözəlova) mükafatlandırdılar.

Festivalın əsas mükafatına – 1, 2 və 3-cü yerlərə isə müvafiq olaraq Dövlət Pantomima Teatrının "Şinel" (rejissor C.Dadaşov), Dövlət Gənc Tamaşaçılar Teatrının "İnanıram" (rejissor E.Rəhimzadə) və "Səhnə" teatrının (müstəqil teatr) "Qurd əfsanəsi" (rejissor N.Ağayev) tamaşaları layiq görüldülər.

Nəzərinizə çatdıraq ki, hər üç yerin sahibinə festivalın diplom və kubokları ilə yanaşı pul mükafatları da verildi.

Bağlanış mərasimi Akademik Musiqili Teatrın balet və xor truppalarının rəngarəng səhnə performansları ilə yadda qaldı.

Beləcə, yaşının az olmasına baxmayaraq, sorağı artıq ölkə sərhədlərini aşan Zəfər sədalı sənət bayramı – "4.4" Qısa Tamaşalar Festivalı öz əsas məramına çatmaqla tarixə qovuşdu.

Festivalın tamaşaları haqqında yazılarımız isə davam edəcək...

**Həmidə Nizamiqızı**

# Milli Kitabxanada Qəzənfər Paşayevin 85 illik yubileyi qeyd olunub



Dekabrın 1-də Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin 85 illiyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə görkəmli alimin "Seçilmiş əsərləri"nin 11 və 12-ci cildlərinin, "Azərbaycanda və İraqda bayatlar" və "Xilaskarlar" (fars dilində) kitablarının, habelə Sərvaz Hüseynoğlunun "Ömrün Qəzənfər Paşayev modeli" kitabının təqdimatı olub.

Tədbiri Milli Kitabxananın direktoru professor Kərim Tahirov açaraq Qəzənfər Paşayevin zəngin elmi axtarışlarından danışıb.

Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar yubilyarın İraq türkmən folklorunun tədqiqi və təbliği sahəsində müstəsna xidmətlərindən bəhs edib.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri tarix üzrə fəlsəfə doktoru Akif Marifli yubilyara nazirlik tərəfindən təsis olunan "Şuşa-270" döş nişanını təqdim edib.

Tədbirdə daha sonra Milli Məclisin Mədəniyyət komitəsinin sədri professor Qənirə Paşayeva, Milli Məclisin deputatı, Xalq şairi Sabir Rüstəmxanlı, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri filologiya elmləri doktoru, professor Şirindil Alışanlı, Azərbaycan Aşıqlar Birliyinin sədri professor Məhərrəm Qasımlı və başqaları çıxış edərək Qəzənfər Paşayevin ədəbiyyatşünas, folklorşünas, dilçi, yazıçı və tərcüməçi kimi çoxşaxəli fəaliyyətindən söz açıblar.

Bildirilib ki, onun yazdığı "Altı il Dəclə-Fərat sahillərində" əsəri müəllifinə böyük şöhrət gətirib. Həmçinin alim Azərbaycan bayatları haqqında ilk ciddi tədqiqat əsəri yazıb.

Tədbirdə Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Professor Qəzənfər Paşayev" adlı elektron məlumat bazası təqdim olunub.

Qəzənfər Paşayev çıxış edərək tədbirin təşkilinə görə Mədəniyyət Nazirliyinə, Milli Kitabxanaya, həmçinin bütün iştirakçılara təşəkkürünü bildirib.

Sonda iştirakçılar Milli Kitabxananın fondundan professor Qəzənfər Paşayevin yaradıcılığını əhatə edən kitabların sərgisi ilə tanış olublar.

# Türk dünyası təşkilatları arasında daha sıx işbirliyi vacibdir



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Beynəlxalq Türk Akademiyasının (BTA) yeni prezidenti tarix üzrə elmlər doktoru, AMEA-nın həqiqi üzvü Şahin Mustafayevlə görüşüb.

Şahin Mustafayevi təbrik edən Günay Əfəndiyeva ona yeni və məsuliyyətli vəzifəsində uğurlar arzulayıb.

Fond tərəfindən həyata keçirilən layihələrdən danışan Günay Əfəndiyeva hər iki təşkilatın fəal və məhsuldar fəaliyyətinin türk dövlətləri və xalqlarının daha sıx inteqrasiyasına böyük töhfə verəcəyini vurğulayıb.

Şahin Mustafayev təbriklərə görə təşəkkür edərək, Türk dünyasında akademik fəaliyyəti əlaqələndirən, türk xalqlarının qədim və müasir tarixini, dilini tədqiq edən beynəlxalq təşkilata rəhbərlik etməsinin qürurverici olduğunu bildirib. O, BTA-nın bundan sonra da səmərəli fəaliyyət göstərməsi və Türk dünyası qurumları ilə sıx əməkdaşlıq istiqamətində çalışacağını qeyd edib.

Fond və BTA arasında mümkün birgə layihələr ətrafında söhbət aparılıb.

Beynəlxalq Türk Akademiyası Astana şəhərində yerləşir. Bundan öncə akademiyaya Qazaxıstandan Darhan Kıdıralı rəhbərlik edib.

# Ağasadıq Gəraybəylinin xatirəsi yad olunub



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə H.Abbasov adına Mədəniyyət Mərkəzində görkəmli teatr və kino aktyoru, Xalq artisti Ağasadıq Gəraybəylinin (1897-1988) 125 illiyi qeyd olunub.

Baş idarədən bildirilib ki, tədbirdə Ağasadıq Gəraybəylinin həyat və yaradıcılığı haqqında geniş məlumat verilib.

Çıxışlarda aktyorun yaratdığı obrazlar qalereyasından söz açılıb. Qeyd olunub ki, geniş yaradıcılıq diapazonuna malik sənətkar Azərbaycanın mədəniyyət salnaməsində xüsusi yer tutur. Onun Akademik Dram Teatrının səhnəsində, filmlərdə, televiziya tamaşalarında canlandırdığı müxtəlif xarakterli obrazlar yüksək bədii təsir qüvvəsini qoruyub saxlamış sənət nümunələridir.

Tədbirdə müğənnilərin, rəqs qruplarının ifaları və tələbə aktyorların çıxışları maraqla qarşılanıb.

# Mədəni irsimizin dünya miqyasında növbəti təntənəsi

## Azərbaycanın qeyri-maddi mədəni irsi ilə bağlı daha 4 element UNESCO-nun siyahısına daxil edilib

*əvvəli səh. 1-də*

UNESCO Hökumətlərarası Komitəsinin 17-ci sessiyasında Azərbaycanın təqdim etdiyi "Pəhləvanlıq, ənənəvi zorxana oyunları və idman növləri" nominasiya faylı da "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na daxil edilib.

UNESCO-nun Qiymətləndirmə Orqanı tərəfindən bütün meyarlar üzrə müsbət rəy alan nominasiya faylı ilə bağlı qərar 1 dekabrda elan edilib.

Sözügedən nominasiya sənədi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyi və UNESCO üzrə Milli Komissiyanın birgə əməkdaşlığı şəraitində təqdim edilib.

Ölkəmizin nümayəndə, heyəti adından çıxış edən Elman Abdullayev pəhləvanlıq sənətinin Azərbaycan mədəniyyətinin önəmli bir hissəsi olduğunu diqqətə çatdırıb, bu sənətin qədim tarixi kökə malik olduğunu bildirib.

Daimi nümayəndə Azərbaycan Respublikası adından UNESCO Qiymətləndirmə Orqanına və Hökumətlərarası Komitəyə xalqımızın mədəni dəyəri olan bu nümunəni dəstəklədiklərinə görə təşəkkür edib.

Daha sonra Azərbaycanda pəhləvanlıq və ənənəvi zorxana oyunları ilə bağlı sessiya iştirakçılarına qısa videoçarx nümayiş etdirilib.

***

Sessiyanın dekabrın 1-də keçirilən iclasında Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistanın birgə təqdim etdiyi "Molla Nəsrəddin lətifələrinin şifahi ənənəsi" nominasiyası da UNESCO-nun reprezentativ siyahısında yer alıb.

Çoxmillətli nominasiya faylı Azərbaycan Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyi və UNESCO üzrə Milli Komissiya, eləcə də Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistanın birgə əməkdaşlığı şəraitində təqdim edilib.

***




Dekabrın 1-də sessiyada, həmçinin Azərbaycan və Türkiyənin birgə təqdim etdiyi "Çay mədəniyyəti: kimliyin, qonaqpərvərliyin və sosial təmasın simvolu" nominasiyası UNESCO-nun Qiymətləndirmə Orqanı tərəfindən bütün meyarlara dair müsbət rəy alaraq "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na daxil edilib.

Nominasiya sənədi Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyi, UNESCO üzrə Milli Komissiya və Türkiyənin müvafiq qurumlarının birgə əməkdaşlığı şəraitində təqdim edilib.

Səfir Elman Abdullayev çıxış edərək çay mədəniyyətinin Azərbaycan xalqının qonaqpərvərliyinin göstəricisi, mədəniyyətimizin önəmli elementi olduğunu vurğulayıb, Azərbaycan Respublikası adından UNESCO-nun Qiymətləndirmə Orqanına və Hökumətlərarası Komitəyə təşəkkürünü bildirib.

***

Qeyd edək ki, Hökumətlərarası Komitənin Rabatda keçirilən sessiyasında ölkəmiz Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyi, Mədəniyyət Nazirliyi, UNESCO üzrə Milli Komissiya və Mərakeş Krallığındakı səfirliyimiz tərəfindən təmsil olunur.

Sessiyada qəbul olunan əlamətdar qərarlarla UNESCO-da qeydə alınan qeyri-mədəni irs nümunələrimizin sayı 19-a çatıb. Onlardan 17-si "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na, 2-si isə "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs Siyahısı"na daxil edilib. Bu elementlərdən 11-i ölkəmiz tərəfindən milli nominasiya olaraq, 8-i Azərbaycanın da iştirakı ilə çoxmillətli nominasiya kimi hazırlanaraq təqdim edilib.

UNESCO Hökumətlərarası Komitəsinin 17-ci sessiyasında əldə olunan bu mühüm nailiyyət Azərbaycanın qədim və zəngin mədəni irsinin dünya miqyasında növbəti təntənəsidir.

# "Milli mədəniyyətimizin Şuşa salnaməsi"

## Dövlət Teatr Muzeyində elmi-praktiki konfrans

Mədəniyyət müəssisələrində "Şuşa İli" çərçivəsində tədbirlər davam edir. Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində "Milli mədəniyyətimizin Şuşa salnaməsi" adlı elmi-praktiki konfrans keçirilib.

Tədbiri muzeyin direktoru Sevinc Mikayılova açıb. Sonra Qarabağ və Şuşa mövzusuna aid muzey eksponatları əsasında hazırlanmış videoçarx nümayiş olunub.

Konfransda sənətşünaslıq doktoru, professor Aydın Talıbzadə "Dilin tanıtdığı müqəddəs Şuşa – semantik rekonstruksiya", Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru Alla Bayramova "Şuşa musiqiçilərinin irsi Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin interpretasiyasında", AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi Mərziyyə Nəcəfova "Azad Şuşa obrazı – vətənpərvərliyin və milli qürurun poetik ifadəsi" mövzularında çıxış ediblər.

Azərbaycan Rəssamlar İttifaqının üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru Arzu Zeynalovanın "Koroğlu, Qaçaq Nəbi və Osmanlı paşalarının obrazları Şuşada toxunmuş Qarabağ xalçalarında", Xəzər Universitetinin müəllimi Mədinə Karahanın "Əhməd bəy Ağaoğlu şəxsiyyət kimi", Azərbaycan İstiqlal Muzeyinin direktoru Sədi Mirseyiblinin "Qarabağda aşkarlanmış muzey sərvətlərində erməni saxtakarlığı", AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Yaqub Məmmədovun "Quruçay mədəniyyəti və onun yayılma arealı", Azərbaycan Dövlət Teatr Muzeyinin böyük elmi işçisi Əli Abuzərovun "Şuşa şəhərinin muzey turizmi potensialı" mövzularında məruzələri də dinlənilib.

# Nazir Anar Kərimov Yevlaxda mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olub

Xəbər verdiyimiz kimi, mədəniyyət naziri Anar Kərimov noyabrın 29-da Yevlax şəhər Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib. Qəbuldan sonra nazir Yevlaxda bir sıra mədəniyyət müəssisələrinə baş çəkib.





Mədəniyyət naziri Yevlax rayonunun Aran qəsəbəsində Musiqi məktəbinin və Mədəniyyət evinin fəaliyyəti ilə tanış olub. Nazirə məlumat verilib ki, musiqi məktəbi 1985-ci ildə fəaliyyətə başlayıb, 2019-cu ildə məktəbin yeni binası istifadəyə verilib. Məktəbdə fortepiano, tar, qarmon, kamança və xanəndəlik ixtisasları tədris olunur, 144 şagird təhsil alır, 46 müəllim çalışır. 1958-ci ildə fəaliyyətə başlayan Mədəniyyət evinin binası 2019-cu ildə Mədəniyyət Nazirliyi tərəfindən əsaslı təmir olunub.

Daha sonra Yevlax şəhərindəki 1 və 2 nömrəli musiqi məktəblərinə baxış keçirilib. Məlumat verilib ki, 1964-cü ildə fəaliyyətə başlayan 1 nömrəli Musiqi məktəbində fortepiano, violin, tar, qarmon, xanəndəlik ixtisasları üzrə tədris aparılır. Məktəbdə 104 müəllim çalışır, 311 şagird təhsil alır. 1991-ci ildən fəaliyyət göstərən 2 nömrəli Musiqi məktəbində isə fortepiano, tar, nağara, xanəndəlik, qarmon və saz ixtisasları üzrə 247 şagird təhsil alır. Tədris ocağında 78 müəllim çalışır.

Anar Kərimov Yevlax Tarix-Diyarşünaslıq Muzeyinə də baxış keçirib. 2005-ci ildə fəaliyyətə başlayan muzeyin əsas fondunda 2580 eksponat mühafizə edilir, onlardan 800-ü daimi ekspozisiyada sərgilənir.

Nazir Yevlax Şəhər Mədəniyyət Mərkəzində, mərkəzin filialları kimi fəaliyyət göstərən Heydər Əliyev Sarayında və şəhər Yaradıcılıq evində olub.

Mədəniyyət Mərkəzi 1982-ci ildə Mədəniyyət evi kimi fəaliyyətə başlayıb, 2015-ci ildən hazırkı statusu ilə fəaliyyət göstərir. 2007-ci ildən fəaliyyət göstərən Heydər Əliyev Sarayında Mədəniyyət Nazirliyi tərəfindən 2021-ci ildə əsaslı təmir işləri başlanıb. Nazir təmir işlərinin vaxtında və yüksək keyfiyyətlə başa çatdırılması ilə bağlı tapşırıq verib.

Son olaraq Yevlax şəhər MKS-nin Mərkəzi Kitabxanasına gələn Anar Kərimov kitab fondu, oxucu sayı barədə ətraflı məlumat alıb. Nazirə məlumat verilib ki, hazırda 500 minə yaxın kitab fondu olan Mərkəzi Kitabxana 1976-cı ildən fəaliyyət göstərir. 1975-ci ildə istismara verilən bina 2019-cu ildə Mədəniyyət Nazirliyi tərəfindən əsaslı təmir olunub.

Müəssisələrin ümumi fəaliyyəti, cari vəziyyəti və maddi-texniki imkanları haqqında məlumat alan Anar Kərimov mədəniyyət ocaqlarında işin günün tələblərinə uyğun qurulması ilə əlaqədar tapşırıq və tövsiyələrini verib.

# Azərbaycanla Tatarıstan arasında mədəni əməkdaşlıq müzakirə edilib

## Gələn il qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi nəzərdə tutulur



Xəbər verdiyimiz kimi, Rusiya Federasiyası Tatarıstan Respublikasının prezidenti Rüstəm Minnixanovun başçılıq etdiyi geniş tərkibli nümayəndə heyəti ölkəmizə səfər edib. Səfər zamanı Azərbaycanla Tatarıstan arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivlərinin, gələcək layihələrin müzakirəsi məqsədilə bir sıra görüşlər keçirilib.

Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva noyabrın 29-da Tatarıstan Respublikasının mədəniyyət naziri İrada Ayupova ilə görüşüb.

Qonağı salamlayan Sevda Məmmədəliyeva xalqlarımız arasında tarixi bağlılıq, ortaq dəyərlər və mədəni əlaqələrin inkişafı üçün gələcək əməkdaşlıq perspektivlərindən söz açıb.

Sevda Məmmədəliyeva noyabrın 28-29-da Tatarıstanın Qabdulla Karieva adına Gənc Tamaşaçılar Teatrı tərəfindən Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması əsasında hazırlanmış tamaşanın nümayişinə görə təşəkkürünü bildirib. Səhnə əsərinin tamaşaçılar tərəfindən maraqla qarşılandığı qeyd olunub.

Azərbaycanda təhsil almış nazir İrada Ayupova uzun müddətdən sonra ölkəmizə səfəri və Bakı şəhərinin sürətli inkişafı ilə bağlı xoş təəssüratlarını bölüşüb, eyni zamanda Azərbaycanda tarixən çoxsaylı mədəni tədbirlərin keçirilməsi ənənəsinin bu gün də davam etdiyinin şahidi olduğunu bildirib.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi, türk xalqlarını birləşdirən birgə layihələrin həyata keçirilməsi və xüsusi əhəmiyyətli tədbirlərdə qarşılıqlı iştirakın önəmi vurğulanıb.

Tatarıstan naziri dekabrın 4-9-da Kazan şəhərində UNESCO-nun "Dünya mədəni və təbii irsinin qorunması haqqında" 1972-ci il Konvensiyasının 50 illiyinə həsr olunan beynəlxalq forumun keçiriləcəyini diqqətə çatdırıb və Azərbaycan Mədəniyyət Nazirliyinin rəsmilərini bu forumda iştiraka dəvət edib. O, həmçinin Tatarıstanda keçirilən teatr, folklor, ənənəvi uşaq oyun festivalları, o cümlədən, türk irsi ənənələrinə və onların təbliğinə yönəlmiş beynəlxalq tədbirlər haqqında məlumat verib. Bununla yanaşı, elm sahəsində əməkdaşlığın dərinləşdirilməsinə üstünlük verilməsi, xüsusilə gənclər arasında elm sahəsində əməkdaşlığın qurulması, Tatarıstanda türk xalqlarının tarixi üzrə uşaqlar arasında olimpiadanın keçirilməsi və bu tədbirlərdə Azərbaycan tərəfinin iştirakının önəmi vurğulanıb.

Görüşdə Azərbaycanda və Tatarıstanda türk xalqlarına aid çoxlu sayda qədim əlyazmaların mövcud olduğu bildirilib, bu əlyazmaların araşdırılıb oxunması üçün süni intellekt əsaslı texnologiya sahəsində birgə əməkdaşlığın zəruriliyi qeyd edilib.

Görüş zamanı Şuşa şəhərinin 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilməsi, habelə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar nəzərdə tutulan tədbirlərdə birgə əməkdaşlıq barədə məlumat mübadiləsi aparılıb. Növbəti ildə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi və bu çərçivədə festivallarda iştirak, birgə kino günlərinin təşkili, mədəniyyət sahəsi ilə bağlı gənclər forumunun keçirilməsi müzakirə olunub.

# Habil sənətinin işığı və ucalığı

## Ustad kamança ifaçısının 95 illiyi qeyd olundu

*əvvəli səh. 1-də*

M.Əsədullayev sənətkarın ustadlığı, kamança sənətimizə verdiyi töhfələrdən danışdı: "Habil Əliyev hər hansı bir muğamı və ya mahnını dəfələrlə çalsa da, onlar bir-birinə bənzəməz, hər dəfə ona yeni bir nəfəs, rəng, yeni bir ahəng qataraq zənginləşdirirdi. Onun ifasında səslənən hər bir sənət nümunəsi sanki dil açıb danışırdı. Habil Əliyevin ifasını dinləyərkən sanki ifaçı ilə musiqi alətinin canlı dialoqda iştirak etdiyinin şahidi olursan".



Çıxışlardan sonra yubiley gecəsi konsert proqramı ilə davam etdi. Xalq artisti, kamança ifaçısı Elşən Mansurov və tələbələri, Əməkdar artistlər Elnur Əhmədov, Toğrul Əsədullayev, Xəyyam Məmmədov sənətkarın vaxtilə repertuarında olmuş əsərləri böyük ustalıqla təqdim etdilər. Xanəndələr – Əməkdar artistlər Babək Niftəliyev, Arzu Əliyeva, solistlər Rəvanə Qurbanova, Səbinə Ərəbli, Ayşən Mehdiyeva, Pərviz Qasımov Habil Əliyevin bəstəsi olan mahnı və muğamlardan parçalar səsləndirdilər. Xanəndələri tarzən Rövşən Qurbanovun rəhbərlik etdiyi BMM-in solistlərindən ibarət olan ansambl müşayiət edirdi.

Tədbirdən sonra Habil Əliyevin həyat yoldaşı Şərqiyyə xanım redaksiyamıza zəng edərək yubiley gecəsinin təşkilatçılarına, Habil sənətinə dəyər verənlərə təşəkkürünü bildirdi. Dedi ki, tədbir bitəndən sonra ona çoxsaylı zənglər gəlib və mükəmməl gecəyə görə təşəkkür edənlərin ardı-arası kəsilmir: "Ailəmiz də, dost-tanış da çox razı qalıb. Bu tədbirin təşkilatçılarına və iştirak edən hər kəsə Habil kimi sənətdə sevilmək və ucalmağı arzulayıram", – deyə Şərqiyyə xanım bildirdi.

Habil Əliyev 28 may 1927-ci ildə Ağdaş rayonunun Üçqovaq kəndində dünyaya göz açıb. 1952-ci ildə Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinin Kamança şöbəsinə daxil olub. Görkəmli tarzən Qurban Pirimovdan və məşhur müğənni Xan Şuşinskidən muğam sənətinin sirlərini öyrənib. O, "Segah", "Bayatı-Qacar", "Bəstənigar", "Bayatı-Şiraz", "Rahab", "Bayatı-kürd", "Çahargah", "Rast", "Zabul" muğamlarına yeni kamança həyatı verib.

Sənətkar keçmiş SSRİ respublikalarında, eləcə də Türkiyə, ABŞ, Almaniya, İngiltərə, Fransa, Hindistan, Pakistan, İran, Misir, İsveçrə, Hollandiya, Tunis, Yaponiya, Suriya, Mozambik və s. ölkələrdə qastrol səfərlərində olub, ABŞ, Fransa, Yaponiya, İtaliya və Yunanıstanda Azərbaycan muğamlarından və xalq mahnılarından ibarət kompakt diskləri də buraxılıb.

O həm də yaradıcı ifaçılardan olub, bəstələdiyi "Şəhla gözlüm", "İlk məhəbbət", "Gülüm yatsın", "Gülməsən gərək" – ümumilikdə 15-ə yaxın mahnı bu gün də sevilərək ifa olunur.

Unudulmaz sənətkar 2015-ci il sentyabrın 8-də vəfat edib.

**Lalə Azəri**

# Əhməd Bakıxanovun 130 illiyi Bəstəkarlar İttifaqında qeyd olunub





Azərbaycanda tar ifaçılarından danışarkən ilk sırada adı çəkilənlərdən biri də Əhməd Bakıxanovdur. Onun dahi Üzeyir Hacıbəylinin yaxın sənət yoldaşlarından biri kimi Azərbaycan musiqi mədəniyyətinin inkişafında müstəsna xidmətləri var. Muğam sənətinin tədrisinə dair proqramın hazırlanmasında, mahir tar ifaçılarının yetişməsində, ilk xalq çalğı alətləri ansamblının yaranmasında, Azərbaycan Dövlət Filarmoniyasının təşəkkülündə və ümumən milli və professional musiqi sənətimizin inkişafında Əhməd Bakıxanov imzasına, onun fədakar fəaliyyətinə rast gəlinir.

Belə dəyərli sənətkarların irsinin əbədi yaşamasına, onların bu günün və gələcəyin nəsillərinə tanıdılmasına xüsusi diqqət ayıran Prezident İlham Əliyev 11 oktyabr 2022-ci il tarixində Əhməd Bakıxanovun 130 illiyinin qeyd olunması dair sərəncam imzalayıb. Sərəncamın icrası ilə bağlı tədbirlər davam etməkdədir.

Noyabrın 30-da Bəstəkarlar İttifaqında da ustadın yubileyinə həsr olunan sənət axşamı keçirildi. Tədbirin ən maraqlı tərəfi o idi ki, Əhməd Bakıxanov onun canlı yadigarı – Xalq artisti, professor, "Şöhrət" ordenli və neçə-neçə digər mükafatların sahibi olan görkəmli bəstəkar Tofiq Bakıxanovun əsərləri ilə anıldı.

Azərbaycan Bəstəkarlar İttifaqının katibi Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova giriş sözündə Əhməd Bakıxanov sənətindən və Tofiq Bakıxanovun bəstəkarlıq fəaliyyətindən söhbət açdı.

Tədbirin aparıcısı – Bəstəkarlar İttifaqının baş məsləhətçisi Sevda Hüseynova səslənəcək əsərlərin Tofiq Bakıxanovun atasına ithaf edildiyini xüsusi vurğuladı.

Proqramda əvvəlcə bəstəkarın yaradıcılığından tar və piano üçün "Konsanetto" (tarzən Mehdi Sadıqzadə), tar və orkestr üçün 3 saylı konsertin birinci hissəsi (tar Rəhilə Məhərrəmova, konsertmeyster Gülnarə Teymurzadə) alqışlarla qarşılandı. Bu əsərlərdə Əhməd Bakıxanovun ifa etdiyi xalq musiqisi və muğamlardan müəyyən fraqmentlərdən bəstəkar böyük ustalıqla istifadə edib.

Sonra Tofiq Bakıxanovun digər əsərləri Əməkdar incəsənət xadimi Rafiq Seyidzadə, Əməkdar artistlər Töhfə Babayeva, Səbinə İbrahimova, Elnarə Kəbirlinskaya, beynəlxalq müsabiqələr laureatı Fəridə Əhmədbəyova, Azərbaycan Dövlət Xor Kapellasının solisti Leyla Dadaşovanın ifasında səslənərək yubiley tədbirinə xüsusi rəng qatdı. Gənc musiqişünas Nərgiz Qulamova Bakıxanovların nəsil şəcərəsi və onların Azərbaycanın elm və mədəniyyət tarixindəki xidmətlərindən bəhs etdi.

Tədbirin sonunda qocaman bəstəkarımız Tofiq Bakıxanov atasının yaradıcılığını göstərdiyi qayğıya və 130 illik yubileylə bağlı verdiyi sərəncama görə Prezident İlham Əliyevə öz minnətdarlığını ifadə etdi, Əhməd Bakıxanovun Üzeyir Hacıbəyli ilə dostluğundan maraqlı faktlar danışdı. Sənətkar yubiley tədbirinin keçirilməsinə görə Azərbaycan Bəstəkarlar İttifaqının sədri professor, Xalq artisti Firəngiz Əlizadəyə təşəkkürünü bildirdi.

Firəngiz Əlizadə Tofiq müəllimi qarşıdan gələn ad günü münasibətilə də təbrik edərək ona cansağlığı arzuladı.

**Səadət Təhmirazqızı**
**Əməkdar mədəniyyət işçisi**

# Gənc Tamaşaçılar Teatrında "Şeyx Sənan"

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin (1882-1941) 140 illiyi ölkə başçısının sərəncamına əsasən silsilə tədbir və layihələrlə qeyd edilir.



Ədibin "Şeyx Sənan" dramı 20 ildən çoxdur ki, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının repertuarında yer alıb. Noyabrın 26-da tamaşanın növbəti nümayişi keçirilib.

Nümayişdən öncə teatrın baş rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə çıxış edərək yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazmış mütəfəkkir şair, görkəmli dramaturq haqqında fikirlərini bölüşüb.

Daha sonra "Şeyx Sənan" tamaşası nümayiş etdirilib. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, quruluşçu rəssamı, Xalq rəssamı Tahir Tahirov, bəstəkarı Firudin Allahverdiyev.

# Mədəniyyət naziri Sumqayıtda vətəndaşlarla görüşəcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov tərəfindən 2022-ci il 16 dekabr tarixində saat 10:00-da Sumqayıtdakı Heydər Əliyev Mərkəzində (Sumqayıt şəhəri, Zülfü Hacıyev 53) Sumqayıt, Şuşa şəhərlərindən və Abşeron, Xızı, Zəngilan, Qubadlı rayonlarından olan vətəndaşların qəbulu keçiriləcək.

Vətəndaşlar 11 dekabr 2022-ci il tarixinə qədər nazirliyin info@culture.gov.az elektron poçt ünvanı, (012) 493 30 02 telefon nömrəsi vasitəsilə və "WhatsApp" xidmətinə (077 714 71 47) müraciət etməklə qəbula yazıla bilərlər.

# Macarıstan şirkətləri Qarabağda quruculuq işlərində iştirak etməyə hazırdır



Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Macarıstana səfər edib.

Səfər zamanı Emin Hüseynov Macarıstan Prezidentinin xarici əlaqələr üzrə müşaviri Kriştof Altus, Xarici İşlər və Ticarət Nazirliyinin məsul şəxsləri, Macarıstanın İxracın Təşviqi Agentliyinin (HEPA) və Lakitelek Fondunun rəhbərliyi, eləcə də yerli şirkətlərin təmsilçiləri ilə görüşlər keçirib.

Prezidentin xüsusi nümayəndəsi Azərbaycanın işğaldan azad edilmiş ərazilərində görülən işlər, "Böyük Qayıdış" Dövlət Proqramı barədə həmsöhbətlərinə məlumat verib. Emin Hüseynov Macarıstanın dövlətimizin suverenliyi və ərazi bütövlüyünə göstərdiyi davamlı dəstəyin, işğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi prosesinə verdiyi töhfənin Azərbaycan hökuməti tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb. O, Macarıstan şirkətlərini Qarabağda həyata keçirilən layihələrə qoşulmağa dəvət edib.

Görüşlərdə Macarıstan şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərində iştirak etməyə və lazımi kömək göstərməyə hazır olduqları bildirilib. Macarıstan təmsilçiləri iki ölkənin liderləri arasında mövcud olan etibarlı münasibətlərin ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün zəmin yaratdığını vurğulayıblar.

Müxtəlif sahələrdə fəaliyyət göstərən Macarıstan şirkətlərinin təmsilçiləri ilə keçirilən görüşdə mümkün əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

# Bəsitçay Dövlət Təbiət Qoruğunun Əsasnaməsi təsdiq edilib

Nazirlər Kabinetinin 29 noyabr 2022-ci il tarixli Qərarı ilə Bəsitçay Dövlət Təbiət Qoruğunun Əsasnaməsi və sanitariya-mühafizə zonasını təsdiq edilib.

Əsasnaməyə əsasən, Bəsitçay Dövlət Təbiət Qoruğu səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini (Şərq çinarı, Qafqaz dağdağanı, Yunan qozu, Qızılxallı forel və s.) təbii vəziyyətdə qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədilə yaradılmış təbiəti mühafizə və elmi tədqiqat idarəsi statusuna malik ərazidir.

Qoruq Azərbaycan SSR Nazirlər Sovetinin 1974-cü il 4 iyun tarixli 172 nömrəli Qərarı ilə Zəngilan rayonunun inzibati ərazisində yaradılıb. Rayon 27 illik işğaldan azad edildikdən sonra, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 oktyabr tarixli 2971 nömrəli Sərəncamı ilə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunun inzibati ərazisində qoruğun fəaliyyəti bərpa edilib.

# Xarici jurnalistlər Cəbrayıl və Zəngilanda



Xarici ölkələrdəki ispandilli kütləvi informasiya vasitələrində fəaliyyət göstərən bir qrup jurnalist İsraildəki Azərbaycan diasporunun dəstəyi ilə Azərbaycana səfər edib.

Səfər çərçivəsində xarici jurnalistlər Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, xarici işlər nazirinin müavini Fariz Rzayev, gənclər və idman naziri Fərid Qayıbov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ilə görüşüblər.

Xarici jurnalistlər noyabrın 29-da işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. İki rayonun ərazisində erməni işğalı dövründə törədilmiş dağıntıların və vandallıq aktlarının şahidi olan jurnalistlər foto və video çəkilişlər aparıb, Xudafərin körpüsündə və Zəngilanın Ağalı kəndində olublar. Onlara postmüharibə dövründə minaların təmizlənməsi, aparılan irimiqyaslı bərpa və yenidənqurma işləri, "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçürüldüyü barədə müfəssəl məlumat verilib.

Qeyd edək ki, qrupun tərkibində "El Español" onlayn jurnalı, "La Vanguardia" (Barselona) və "La Razón" (Madrid) qəzetləri, "SIC", "Mediaset España", "La Vanguardia", "Haaretz" media qurumları və "The Jerusalem Post Magazine", "The Berlin Quarterly" jurnallarının əməkdaşları yer alıblar.

# Musiqi mədəniyyətimizin Fikrət Əmirov fenomeni



Azərbaycanın dünya şöhrətli bəstəkarı, simfonik muğam janrının banisi, SSRİ Xalq artisti Fikrət Əmirovun (1922-1984) 100 illiyinə həsr olunan tədbirlər davam edir.

Ağcabədi RMİ Ağdam rayon Gülablı kənd Uşaq musiqi məktəbində də Fikrət Əmirovun 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

***



Sumqayıt Regional Mədəniyyət İdarəsi (RMİ) Abşeron rayon Mehdiabad qəsəbə Uşaq musiqi məktəbi müəllim və şagird kollektivinin iştirakı ilə bəstəkarın yubileyinə həsr olunmuş konsert keçirilib. Məktəbin xanəndə ixtisası üzrə müəllimləri Zabit Əhmədli F.Əmirovun "Gülür ellər", Sadiq Qasımov isə bəstəkarın "Şeyx Sənan" tamaşasına yazdığı "Kor ərəbin mahnısı"nı səsləndirib. Həmçinin I sinif şagirdlərindən ibarət ansambl tərəfindən "Qatar", xanəndə, skripka, fortepiano ixtisası üzrə şagirdlər isə "Mən səni araram", "Aslanın mahnısı", "Reyhan", "Xatirə" və s. əsərlər təqdim edilib.

***



Şəki RMİ Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə "Fikrət Əmirov-100" adlı tədbir keçirilib. Məktəbin müəllim və şagirdlərinin ifasında bəstəkarın əsərləri səsləndirilib. Sonda Şəki RMİ-nin rəisi Azər Yusubov çıxış edərək tədbirin təşkilatçılarına təşəkkürünü bildirib, kollektivə uğurlar arzulayıb.

***

Gəncə RMİ Goranboy şəhər Uşaq incəsənət məktəbində Fikrət Əmirovun 100 illik yubileyi ilə əlaqədar tədbir keçirilib. Məktəbin direktoru Sevinc Zeynalova bəstəkarın həyat yolu və zəngin yaradıcılığından bəhs edib.



Gəncə şəhər MKS-nin 11 saylı kitabxana filialında "Fikrət Əmirovun musiqi dünyası" adlı sərgi təşkil olunub. Sərgidə bəstəkarın həyat və yaradıcılığını əks etdirən kitablar nümayiş olunub.

***



Biləsuvar RMİ Neftçala rayon Camal İsmayılov adına Uşaq incəsənət məktəbində bəstəkarın yubileyinə həsr olunan ədəbi-bədii kompozisiya təşkil edilib. Şagirdlərin əl işlərindən ibarət sərgi nümayiş olunub.

# "Ruhumun ünvanı – Şuşa"



Kürdəmir RMİ və Kürdəmir Rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə rayon Heydər Əliyev Mərkəzində "Şuşa İli"nə həsr edilmiş "Ruhumun ünvanı Şuşa" adlı tədbir keçirilib. Dövlət himni səsləndirildikdən sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

RMİ-nin rəisi Faiq Xudanlı çıxışında müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuzun qazandığı tarixi Zəfərin əhəmiyyətindən bəhs edib, "Şuşa İli"ndə həyata keçirilən tədbirlər haqqında fikirlərini bölüşüb.

Sonra Şuşanın əsrarəngiz təbiətini, zəngin tarixini özündə əks etdirən videoçarxlar nümayiş olunub. Tədbir Kürdəmir Rayon Mədəniyyət Mərkəzin və rayon Uşaq incəsənət məktəbinin hazırladığı konsert proqramı ilə davam etdirilib.

Beyləqan Tarix-Diyarşünaslıq Muzeyində "Azərbaycanın dilbər guşəsi – Şuşa" adlı mühazirə təşkil olunub. Çıxışlarda Ali Baş Komandanın rəhbərliyi ilə Şuşanın işğaldan azad edilməsinin tarixi əhəmiyyətindən, şəhərin mədəniyyətindən, yetişdirdiyi görkəmli simalardan, əsrarəngiz təbiətindən bəhs edilib. Tədbir iştirakçıları "Şuşa İli"nə həsr olunmuş sərgi ilə tanış olublar.

# "Mübariz publisistin ömür yolu"



Şəki RMİ Zaqatala Rayon Mərkəzi Kitabxanasının oxu zalında görkəmli maarif mətbuat xadimi, publisist Ömər Faiq Nemanzadənin (1872-1937) 150 illik yubileyinə həsr olunmuş "Mübariz publisistin ömür yolu" adlı tədbir keçirilib. Mərkəzi Kitabxananın və Zaqatala Rayon Tarix-Mədəniyyət Qoruğunun birgə təşkilatçılığı ilə gerçəkləşən tədbirdə mədəniyyət işçiləri, kitabxananın oxucuları iştirak ediblər.

Kitabxananın əməkdaşları Məmləkət Ömərova "Ömər Faiq Nemanzadə və azərbaycançılıq ideyası", Şəbnəm Mustafayeva "Molla Nəsrəddin" jurnalı və Nemanzadə ideyaları", qoruğun əməkdaşı Səbuhi Bayramov isə "Ömər Faiq Nemanzadə: görkəmli şəxsiyyət, mübariz jurnalist və tanınmış ictimai xadim" mövzularında məruzələrlə çıxış ediblər.

# İstiqlal şairinin 130 illiyi münasibətilə



Bölgələrdəki mədəniyyət müəssisələrində istiqlal şairi Əhməd Cavadın (1892-1937) 130 illik yubileyi münasibətilə bir sıra tədbirlər keçirilib.

Xaçmaz RMİ Şabran Rayon Mədəniyyət Mərkəzində "İstiqlal şairi Əhməd Cavad" adlı tədbir keçirilib. "Şabran" instrumental ansamblı solistlərinin ifasında Ə.Cavadın şeirlərinə bəstələnmiş mahnılar səsləndirilib. Şabran xalq teatrının üzvləri tərəfindən şairin həyat yoldaşı Şükriyyə xanımın həyatından bəhs edən səhnə nümayiş olunub.

***

Şəki RMİ M.F.Axundzadə adına Şəki Şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Ələsgər Abdullayev adına Diyarşünaslıq evində "Çırpınırdın, Qara dəniz" mövzusunda tədbir keçirilib. Şəki şəhər 9 saylı tam orta məktəbin müəllimi Aida Bilalova şairin həyat və yaradıcılığı haqqında məlumat verib.

Şagirdlər şairin şeirlərinə bəstələnmiş mahnıları ifa ediblər.

***

Lənkəran RMİ Lənkəran şəhər Göyşaban kənd Yaradıcılıq evi və M.F.Səhban adına Göyşaban kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə Əhməd Cavadın 130 illiyi münasibətilə tədbir keçirilib. Şairin şah əsəri olan Dövlət himnimizin səsləndirilməsi ilə başlayan tədbirdə Əhməd Cavadın timsalında Azərbaycanın istiqlalı, ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda edən Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov şairin yüksək vətənpərvərlik qayəsindən, xalqa, dövlətçiliyimizə sədaqətindən bəhs edib.

Göyşaban kənd Yaradıcılıq evinin dərnək üzvlərinin və məktəbin şagirdlərinin hazırladığı bədii hissə təqdim olunub. Sonda şairin həyat və yaradıcılığından bəhs edən film nümayiş etdirilib.

**Hazırladı: N.Məmmədli**

# Vətənin ölməz oğulları

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyində Birinci Qarabağ və Vətən müharibəsi qəhrəmanlarının tanıdılması məqsədilə "Vətənin ölməz oğulları" layihəsi çərçivəsində növbəti tədbir keçirilib. Muzeyin direktoru Əntiqə Tağıyeva layihənin əhəmiyyətindən danışıb. Muzeyin əməkdaşı Sevinc Əliyeva noyabr ayında doğulan, Birinci Qarabağ və Vətən müharibəsində döyüşmüş hərbçilər haqqında məlumat verərək onların valideynlərinə dərin ehtiramını ifadə edib.

***

Sabirabad RMİ Hacıqabul Rayon Heydər Əliyev Mərkəzi və rayon Tarix-Diyarşünaslıq Muzeyinin kollektivi Vətən müharibəsi şəhidi Hüseyn Abbasovun ailəsini ziyarət edib.

***

Şəmkir RMİ Şəmkir Rayon Heydər Əliyev Mərkəzində xalq rəssamı Fərman Hüseynovun şanlı Zəfərimizə həsr olunan sərgisi təşkil olunub.



***

Lənkəran RMİ Lənkəran Şəhər Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidi Taleh İsmayılovun anım günü keçirilib. Vətənə, şəhidlərimizə həsr olunan şeirlər səsləndirilib, ədəbi-bədii kompozisiya nümayiş olunub və T.İsmayılovun xatirəsinə hazırlanmış videoçarx təqdim edilib. Sonda Heydər Əliyev Mərkəzi rəsm studiyasının istedadlı şagirdi Rozana Gülverdiyeva yağlı boya ilə çəkdiyi T.İsmayılovun portretini şəhidin həyat yoldaşına təqdim edib.

# Sumqayıt teatrında "Kimdir müqəssir?"

Sumqayıt Dövlət Dram Teatrında Əbdürrəhim bəy Haqverdiyevin "Kimdir müqəssir" vodevili əsasında hazırlanmış tamaşanın premyerası noyabrın 27-də olub.

Rejissor Fuad Kazımovun quruluş verdiyi tamaşa Sumqayıt Musiqi Kollecinin kollektivi ilə birgə layihə kimi ərsəyə gəlib. Nümayişdən əvvəl çıxış edən teatrın direktoru səlahiyyətlərini icra edən Əməkdar artist Vidadi Məmmədov və rejissor Fuad Kazımov uğurlu əməkdaşlığa görə təhsil ocağının kollektivinə təşəkkür edib, belə aksiyaların gənclərin teatra cəlbində olunmasında əhəmiyyətini vurğulayıblar.

Tamaşada diqqətçəkən məqamlardan biri də səhnədə canlı musiqi ilə müşayiət olub. Könül Bəkirovanın rəhbərlik etdiyi musiqi qrupu tamaşaya fərqli ovqat verə bilib. Səhnə nümunəsinin quruluşçu rəssamı Nizami Dadaşov, icraçı rəssamı Arif Müzəffərov, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyevdir. İki heyətlə qurulan tamaşanın premyerasında rolları Elay Xasıyev, Vəfa Qurbanova və Elmir Mehdiyev ifa ediblər.

# Əgər dirijor Rauf Abdullayevdirsə...

"Əgər dirijor Rauf Abdullayevdirsə, deməli, hər şey öz qaydasındadır". Bu sözləri zamanəmizin böyük bəstəkarı Qara Qarayev deyib.

1971-ci ildə alman (ADR) kinorejissoru Konrad Volf (Wolf) sovet kinematoqrafçılarının da ("Lenfilm") iştirakı ilə "Qoyya" bədii filmini çəkməyə başlayarkən Qara Qarayev və Fərəc Qarayev ekran əsərinin bəstəkarları kimi dəvət olunurlar. Rejissorun ideyasına görə, mürəkkəb psixoloji ifadə çalarları ilə zəngin filmin musiqi dramaturgiyası ispan rəssamının daxili aləminin açılmasında əsas rol oynamalıydı. Bu baxımdan rejissor çəkilişlərdən əvvəl musiqi parçalarının hazırlanaraq fonoqramın yazılması tələbi qoymuşdu.

Baş rolun ifaçısı Donatas Banionis "Qoyya" filmi haqqında danışarkən həmin məqama xüsusi toxunur: "Kino incəsənətində əsas rol ifaçısının çəkilişdən əvvəl musiqi ilə əyani tanışlığı nadir hallarda olur. Amma "Qoyya"nın ssenarisi üzrə mənim qəhrəmanımın iştirakı olan səhnələrdəki mizanlar lent yazılarının müşayiəti ilə baş verməliydi. Səmimi etiraf eləməliyəm ki, mən yaradacağım obrazın mənəvi dünyasının dərinliyi ilə Qarayevlərin musiqisi vasitəsilə tanış olurdum".

Fərəc müəllim atası barədə xatirələrinin birində məhz "Qoyya" üzərində müştərək işdən söhbət açaraq qeyd edirdi: "Sankt-Peterburq Akademik Filarmoniyasının simfonik orkestri ilə musiqi hissələrinin lent yazılışını həyata keçirəcək dirijorun kimliyi məsələsi qaldırılanda Qara müəllim birmənalı şəkildə Rauf Abdullayev olacağını bildirdi...".

### Taleyin qisməti

Rauf müəllimin boya-başa çatdığı ailədə böyük qardaşları Kamal və Azər Abdullayevlər 50-ci illərdə milli musiqi tariximizdə formalaşmağa başlayan elitanın ilklərindən idilər. Moskva Konservatoriyasında professor Leo Qinzburqun sinfində mükəmməl təhsil almış Kamal Abdullayevin Akademik Opera və Balet Teatrının baş dirijoru təyin olunması gənc mütəxəssisə göstərilən böyük etimadın nəticəsi idi. Məhz Kamal müəllim 1952-ci ildə Qara Qarayevin "Yeddi gözəl" baletinin premyerası ilə iki soyad arasında müasir dövrümüzə qədər davamlı olan yaradıcı tandemin bünövrəsini qoydu.

K.Abdullayevin sənətkar fəaliyyətinin böyük bir hissəsi Stanislavski və Nemiroviç-Dançenko adına Moskva Dövlət Musiqili Teatrı ilə bağlıdır. Bununla əlaqədar bir neçə il bundan əvvəl yaddaşıma çökən bir görüş haqqında danışmaq istərdim. 2009-cu ilin avqustunda I Qəbələ Beynəlxalq Musiqi Festivalına dəvət olunan İsrailin Raana Simfonik Orkestrinin klarnet qrupunun konsertmeysteri Mixail Qurfinkel idi. Konsert proqramının məşqlərində fasilə zamanı M.Qurfinkel maestro ilə səmimi söhbətində Kamal müəllimlə birgə işlədiyi zamanlarla bağlı xoş təəssüratlarını bölüşdü.

Sankt-Peterburq Konservatoriyasının məzunlarından olan görkəmli qoboy ifaçısı və pedaqoq, professor Azər Abdullayevin uzun illər milli kadrların yetişdirilməsində, müxtəlif metodiki ədəbiyyatın hazırlanmasında, nəfəs alətləri üçün əsərlərin yazılmasında bəstəkarların cəlb olunması istiqamətində səmərəli fəaliyyəti ifaçılıq tariximizin parlaq səhifələrindən biridir. Azər müəllimin bioqrafiyasından maraqlı bir faktı da burada qeyd etmək yerinə düşər. Ötən əsrin 40-cı illərinin sonundan başlayaraq Sovet İttifaqının konsert həyatında bir oyanış müşahidə olunurdu. İstedadlı gənc ifaçılar tərəfindən klassik bəstəkarların o dövrə qədər heç vaxt səslənməyən bir çox instrumental əsərlərinə yeni səhnə həyatı verilirdi. 1952-ci ildə Moskvada Azər müəllimin violin ifaçısı Yevgeni Meleşkinlə İ.S.Baxın violin, qoboy və orkestr üçün ikili konsertinin səsləndirilməsi musiqi tariximizdə bu qəbildən olan önəmli mədəniyyət hadisələrindən biridir.

### Müqtədir pedaqoqun sinfində

Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) professor Fəridə Quliyevanın rəhbərliyi altında istedadlı pianoçu kimi formalaşan Rauf Abdullayevi tale Sankt-Peterburq Konservatoriyasına böyük pedaqoq, professor Nikolay Semyonoviç Rabinoviçin sinfinə gətirir.



Bir qədər qabağa gedərək vurğulamaq istərdim ki, Fərəc Qarayev "Tristessa I" simfoniyasını yaradarkən maestronun həm dirijor, həm də mahir pianoçu kimi fərdi xüsusiyyətlərini nəzərə almışdır. Bir növ musiqili teatr tamaşası kimi düşünülmüş kompozisiyanın əsasını Qara Qarayevin üç fortepiano prelüdü təşkil edir. Fərəc müəllimin konsepsiyasına görə dirijor ilk iki prelüdü orkestr çıxışları arası royalda solo ifa edir, sonuncu isə lent yazısı şəklində verilir.

Rauf müəllim bir çox müsahibələrində ustadı N.S.Rabinoviçi ensiklopedik biliyə, geniş dünyagörüşünə, incə zövqə malik sənətkar kimi dəyərləndirir. Burada Yuri Temirkanovun xatirələrindən bir misal çəkmək yerinə düşər: "...Təhsil illərində İlya Musinin N.S.Rabinoviçin də dərslərində iştirak edirdim. O, musiqidən əlavə bir çox incəsənət sahələri ilə bağlı dərin bilgilərə malik intibah ruhlu şəxsiyyət idi. Professor musiqi məzmununun gizlinlərindəki mahiyyəti dolğun təfsir etmək üçün ilk məşqdən əsərin ən xırda detalları üzərində dəqiq iş aparmağı dirijorun əsas vəzifəsi sayırdı... Məsələn, tələbələrindən əsərin partiturasındakı hansısa epizodda akkordun harmonik təyininin nədən ibarət olduğunu, yaxud bəstəkar tərəfindən giriş bölmədəki eyni ritmik qruplaşmanın finalda əks düzülüşünün səbəbini soruşulayardı...".

Uzun illər Rauf müəllimin istər məşqdə, istərsə də konsertdə iş prinsipini izlədikcə əsərdə bəstəkar fikrinin düzgün çatdırılmasına ciddi münasibətin dəfələrlə şahidi olmuşam. Məsələn, Fikrət Əmirovun yaradıcılığı ilə əyani tanış olanlar yaxşı bilirlər ki, onun əsərlərində bitkin formanı qurmaq ifaçıdan xüsusi diqqət tələb edir. Misal üçün, "Kor ərəbin mahnısı"nın müqəddiməsi taxta nəfəslilərlə yaylıların müxtəlif interval münasibətli unisonu ilə açılır. Yarım xanəlik pauzadan sonra valtornalar və bas taxta nəfəslilərin birgə girişinin sonunda vokal partiya çıxışa başlayır. Vokal partiyanın başlanğıcına yaxınlaşdıqda eyni ritmik fikir quruluşunun variant-variasiya prinsipinə əsaslanan şəkildə təkrarı ilə emosional inkişafı müşahidə edirik. Yaylılarda səkkizlik ölçülərlə verilən motiv taxta nəfəslilərdə on altılıqlarla əvəzlənir. Rauf müəllim məhz həmin anda dinamikanın canlanması ilə ümumi səs axarının gücləndirilməsini paralel həyata keçirir. Bununla da, vokal partiyadan öncə qabardılan harmonik sütunla mətnin məna yükü arasında bağlılıq yaradır.

### Müstəqil sənətkar yollarında

Təhsili başa vuraraq vətənə dönən Rauf Abdullayev respublikanın qaynar mədəni həyatına qoşulur. İstedadlı, perspektivli, özünə güvənli gənc dirijor musiqi ictimaiyyətinin diqqətini çəkir, maraqlı layihələrə cəlb olunur. 1960-cı ilin əvvəllərində SSRİ-də "mülayimləşmə" ab-havası ilə "dəmir pərdə"nin qismən aradan qaldırılması ilk olaraq yaradıcı mühitdə özünü göstərməyə başlayırdı. 1961-ci ildə ABŞ-nin Los-Anceles şəhərində Frans Vaksmanın təşəbbüsü ilə təşkil olunan Beynəlxalq Müasir Musiqi Festivalından Qara Qarayevin də daxil olduğu nümayəndə heyəti qayıtdıqdan sonra SSRİ-də belə formatlı tədbirin keçirilməsi zərurəti yaranmışdı. Nəticədə 1962-80-ci illərdə Nijni-Novqorod (o vaxtlar Qorki adlanırdı) şəhərində müasir musiqi festivalları keçirildi. Festivala ölkənin ən yaxşı ifaçı, dirijor və musiqi kollektivləri ilə yanaşı, xarici sənətkarlar dəvət olunurdu. 1967-ci ildə, III festivalda gənc dirijor Rauf Abdullayevin idarəçiliyi ilə Q.Qarayevin "Leyli və Məcnun" simfonik poeması, F.Əmirovun "Sevil" operasından Sevilin ariyası (solist Firəngiz Əhmədova) və Rauf Hacıyevin violin konserti (solist Azad Əliyev) səslənmişdi.



1966-cı ildən bu zamana qədər, əlli ildən artıq müddət ərzində Rauf müəllim çoxcəhətli fəaliyyəti ilə bir çox uğurlara imza atmışdır. Əməkdar incəsənət xadimi Zümrüd Dadaşzadənun qeyd etdiyi kimi: "...Çeşidli opera və baletlərin tamaşaya hazırlanması, dünya klassikası şedevrlərinin özünəxas, təravətli ifası, XX əsr avanqard musiqi nümunələrinin Bakıda təbliği, Azərbaycan bəstəkarlarının əsərlərinin etalona yaxınlaşan təfsirləri R.Abdullayevin yaradıcılığının cövhərini təşkil edir...".

### Ulu öndərin diqqət mərkəzində

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik elədiyi bütün illərdə əsas prioritet sahələrdən biri olan mədəniyyət və incəsənət həmişə diqqət mərkəzində olmuşdur. Həmin dövrün canlı şahidi Rauf Abdullayev 19 may 2009-cu il tarixli "Respublika" qəzetində "Milli-mədəni dəyərlərimizin qayğıkeşi" adlı məqaləsindən bir fikri diqqətə çatdırmaq istərdim: "...Ulu öndərimiz Heydər Əliyev çox yüksək zövqə malik intellektual səviyyəli bir ziyalı idi. O, dərin biliyə, möhkəm iradəyə, ən yüksək təfəkkürə, iti baxışlara, zəhmli görkəmə malik olmaqla hər şeyi obyektiv qiymətləndirən, vətənini, xalqını, millətini ürəkdən sevən, daim onun qayğısına qalan görkəmli şəxsiyyət idi...".

1970-ci ildə Azərbaycan Dövlət Opera və Balet Teatrının baş dirijoru kimi Parisdən qayıdandan sonra Heydər Əliyevin teatra gəlişi böyük ruh yüksəkliyinə səbəb oldu. Mənim onunla tanışlığım da elə o zamandan başladı... Onun Paris qastrolundakı müvəffəqiyyətli çıxışlarımızdan danışması və bizi təbrik etməsi məni heyrətləndirməyə bilməzdi... Sonda bizim Parisdəki çıxışlarımızı çox yüksək qiymətləndirərək mənə ünvanladığı: "Azərbaycan mədəniyyəti dünya mədəniyyətinə öz töhvəsini verməlidir. Yadımızdan çıxarmayaq ki, bizim milli, mənəvi dəyərlərimizin ən güclü qolu bizim mədəniyyətimizdir..." tövsiyəsi ilə gələcək fəaliyyətimin istiqamətini müəyyənləşdirdi".

Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə də Rauf Abdullayevin bədii rəhbər və baş dirijor olduğu Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin maddi-texniki təminatının yaxşılaşdırılması diqqətdə saxlayır, qayğısını əsirgəmirdi. Təsadüfi deyil ki, dövlət səviyyəli tədbirlərin hamısında Rauf Abdullayevin rəhbərlik etdiyi simfonik orkestr həmişə yüksək səviyyəli çıxışları ilə yadda qalıb. Hər dəfə də konsertdən sonra səhnə arxasına keçən dövlət başçısının təbriklərinin bir qismi Rauf müəllimə və rəhbəri olduğu kollektivə ünvanlanırdı.

Ulu öndərin sənətkara bəslədiyi etimadın nümunəsi kimi şahidi olduğum bir faktı qeyd etmək istərdim. 2003-cü ilin fevralında MDB ölkələri mədəniyyət nazirlərinin Bakı toplantısı Qara Qarayevin 85 illik yubileyinə təsadüf etdiyindən Akademik Opera və Balet Teatrında bəstəkarın əsərlərindən ibarət konsert proqramı nəzərdə tutulmuşdu. Adətən belə tədbirlərdə dövlət başçısının iştirakı əvvəlcədən bəlli olduğu üçün xüsusi təhlükəsizlik tədbirləri görülür və bütün proqrama rəsmi baxış keçirilirdi. Bu dəfə isə Heydər Əliyevin bütün bu prosedursuz konsertdə iştirakı tədbirə özəl ovqat qatdı. Uğurlu musiqi axşamından sonra prezidentin səhnəyə çıxaraq maestronu qucaqlayıb təbrik etməsi zalda böyük çoşqu ilə qarşılandı.

### Qəbələ festivalından bir epizod

Görkəmli dirijor ifa olunacaq əsərin partiturasında qeyd olunan bütün məziyyətlərlə yanaşı, müəllifin mənsub olduğu milli kökdən irəli gələn genetik musiqi incəliklərinin dolğun çatdırılmasına da xüsusi diqqət yetirir. 2011-ci ildə III Qəbələ festivalının iştirakçısı olduğu "Yeni Rusiya" simfonik orkestrinin konsert proqramına Soltan Hacıbəyovun "Karvan" simfonik lövhəsi və P.İ.Çaykovskinin 1 saylı fortepiano konserti (solist Denis Matsuyev) daxil edilmişdi. Ayrıca vurğulamaq istərdim ki, bu, dünya şöhrətli pianoçu ilə maestronun ilk görüşü deyildi. 2004-cü ilin mayında D.Matsuyev Azərbaycan Dövlət Filarmoniyasında çox uğurlu konsert proqramı ilə çıxış etmişdi. Həmin axşamdan sonra müsahibəsində orkestrin ifasını yüksək dəyərləndirən pianoçu Rauf Abdullayevlə səhnə bölüşməsindən qürur duyduğunu söyləmişdi.

Qəbələdəki konsertdə Rusiya orkestrinin ifasında "Karvan"ın necə səslənəcəyi bizdə böyük maraq oyadırdı. Bildiyimiz kimi, mövcud partitura muğam təfəkkürü ilə bağlı fəlsəfəyə əsaslanaraq ilkin fikrin aramlı inkişafı konsepsiyasına söykənir. Elə əsərin əvvəlində fleyta solosunun təfsirində milli koloritin ifadə üslubunun düzgün tapılması böyük əhəmiyyət daşıyır. Kollektiv yüksək ifaçılıq səviyyəsinə baxmayaraq, belə spesifik musiqi ilə ilk dəfə qarşılaşırdı. Buna görə qavranma baxımından müəyyən çətinliklərin olacağı ehtimalı vardı. Lakin Rauf müəllimin təmkinli izahları qısa zamanda lazımi yaradıcı effekti verdi. Növbəti məşqdə orkestr ilə maestro arasındakı vəhdət festivalın ən diqqətçəkən konserti ilə yadda qaldı.

### "Mezzo" kanalında ilk

Rauf Abdullayevin yaradıcılığında olduqca önəmli hadisə "Mezzo" telekanalının efirində milli mədəniyyətimizin təbliği baxımından iki konsertdə dirijor qismində iştirakıdır. Qara Qarayevin 100 illik yubiley tədbirləri çərçivəsində 2018-ci il martın 28-də, D.Şostakoviç adına Sankt-Peterburq Akademik Filarmoniyasının Böyük zalında Rusiyanın Əməkdar kollektivi, akademik simfonik orkestrin proqramında bəstəkarın "Leyli və Məcnun" simfonik poeması, "Don Kixot" simfonik qravürləri, "İldırımlı yollarla" baletindən II süita ilə yanaşı, Maksim Vengerovun solistliyi ilə "Violin və orkestr üçün konsert"i daxil idi.

Növbəti konsert isə bir il sonra, 2019-cu il mayın 12-də Monte Karlo Filarmoniya Orkestrinin iştirakı ilə həyata keçirildi. Budəfəki musiqi axşamı Fikrət Əmirov yaradıcılığına həsr edilmişdi. Konsertdə bəstəkarın "Kürd ovşarı", "Gülüstan – Bayatı-Şiraz" simfonik muğamları, "Azərbaycan kapriççiosu", Alim Qasımovla "Kor ərəbin mahnısı" və dünya şöhrətli gürcü pianoçusu Xatiya Buniatişvilinin təfsirində "Ərəb mövzuları əsasında fortepiano konserti" səsləndi. Hər iki konserti izlədikcə Rauf müəllimin simasında daima təravətli yaradıcı ehtirasla milli musiqi incilərimizin nüfuzlu məkanlarda səslənməsinə göstərdiyi səydən aldığı məmnunluğu sezmək olardı.

Maestronun məhsuldar yaradıcılığı daima dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Rauf müəllimin 85 illik yubileyi ərəfəsində Prezident İlham Əliyev tərəfindən 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunması buna bariz misaldır. Çünki maestro hansı səhnə məkanında olursa olsun, onun yaradıcı şəxsiyyəti milli mədəniyyətimizi layiqincə təmsil edəcək yüksək səviyyəli brenddir.

Rauf Abdullayevin sevimli əsərlərindən biri C.Verdinin "Taleyin gücü" operasına uvertüradır. Maestronun bir çox konsertlərində həmin əsər səslənir. Mən burada bir simvolik məna duyuram. İnsan özü öz taleyinin qurucusu və hakimidir. Necə ki, Rauf müəllim düzgün düşünülmüş sənət yolunda inamla addımlayaraq milli mədəniyyətimizin dünyada tanınmasında enerjisini əsirgəmir.

Yubileyiniz mübarək olsun, maestro!

**Yavər Neymətli**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# Türk dünyasının birlik simvolu

## Əhməd Cavadın 130 illiyi ilə bağlı musiqili gecə

Dövlət başçısının sərəncamı ilə bu il anadan olmasının 130 illiyi ölkəmizdə və xaricdə müxtəlif tədbirlərlə qeyd edilən istiqlal şairi Əhməd Cavad (1892-1937) Azərbaycan milli ictimai fikrinin parlaq simalarından biridir. XX əsr Azərbaycan poeziyasında istiqlal ideyalarının yorulmaz təbliğatçısı olan şairin yaradıcılığı həmişə müasirdir.

Noyabrın 29-da Beynəlxalq Muğam Mərkəzində AMEA Folklor İnstitutu ilə birgə Əhməd Cavadın 130 illiyinə həsr olunan tədbir keçirildi.

İlk olaraq sözləri Əhməd Cavada, musiqisi dahi Üzeyir Hacıbəyliyə məxsus olan Azərbaycanın Dövlət Himni səsləndirildi.

Sonra açılış nitqi ilə çıxış edən Əməkdar artist, xanəndə Nuriyyə Hüseynova qonaqları salamladı.

Şairin nəticəsi Cavad Axundzadə Əhməd Cavadın adını daşımağın böyük şərəf və məsuliyyət olduğunu dedi: "Mən çalışmışam ki, bu adı hər zaman doğruldum. Əhməd Cavad Azərbaycan ədəbi fikir tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Bildiyiniz kimi, Prezident İlham Əliyev 2022-ci il aprelin 20-də Əhməd Cavadın 130 illiyinin qeyd olunması ilə bağlı Sərəncam imzalayıb. Mən bir daha Əhməd Cavadın yaradıcılığına göstərilən diqqətə görə ölkə başçısına təşəkkürümü bildirirəm. Əhməd Cavad bütün ömrünü istiqlal ideyalarına, türkçülüyə həsr edib. Birinci Dünya müharibəsi zamanı Osmanlı ordusu sıralarında, Balkan cəbhəsində hərbi əməliyyatlarda iştirak edən şair "Çırpınırdın, Qara dəniz" şeirini yazmaqla bütün Türk dünyasının birlik simvoluna çevrilib".



Cavad Axundzadə tədbirin təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirdi.

AMEA Folklor İnstitutu Mifologiya şöbəsinin müdiri filologiya üzrə elmlər doktoru, professor Seyfəddin Rzasoy bildirdi ki, Əhməd Cavadın ədəbiyyatımızda əsas rolu bizim üçün zəngin milli yaddaş yaratmasıdır.

Çıxışlardan sonra Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən "Qorqud" folklor ansamblı (bədii rəhbər – Əməkdar artist Nuriyyə Hüseynova) tərəfindən musiqili proqram təqdim olundu. Nuriyyə Hüseynova, Ülviyyə Sədaqət, Çiləney Hüseynova, Həlimət Sultan və Aşur Adıgözəlov şairin şeirlərinə bəstələnən "Al bayraq", "Şükriyyə", "Can, Azərbaycan", "Çırpınırdın, Qara dəniz" və digər mahnıları ifa etdilər. Çıxışlar alqışlarla qarşılandı.

**Nurəddin**

# Fikrət Əmirovun yubileyi ilə bağlı konsertlər

Noyabrın 30-da Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Niyazi adına 22 nömrəli Musiqi məktəbində dahi bəstəkar Fikrət Əmirovun 100 illik yubileyinə həsr olunmuş konsert keçirilib.



Məktəbin şagirdləri bəstəkarın həyat və yaradıcılığı haqqında danışıblar. Sonra bəstəkarın əsərlərindən nümunələr səsləndirilib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin 33 nömrəli Musiqi məktəbində də Fikrət Əmirovun 100 illik yubileyi münasibətilə konsert təqdim edilib. Konsertdə məktəbin fortepiano, orkestr, xalq çalğı alətləri şöbəsində təhsil alan şagirdlər iştirak ediblər.

# Gənc vokalçının növbəti uğuru

Londonda keçirilən "Golden Time Talent – 2022" opera ifaçılarının vokal müsabiqəsində azərbaycanlı vokal ifaçısı Urfan Cəfərov növbəti uğura imza atıb. Vokalçı 18 ölkənin təmsilçiləri arasında Qran-pri ("Qızıl səs") mükafatını qazanıb.

Gənc vokalçı bu il Nyu-Yorkda keçirilən "American Protege International Vocal Competition – 2022" müsabiqəsində də 21 ölkə təmsilçisi arasında birinci olmuşdu.

Urfan Cəfərov Bakı Musiqi Akademiyasında Xalq artisti Xuraman Qasımovanın sinfini bitirib.

## Veteran mədəniyyət işçisi Əlizadə Əliyev vəfat edib



Uzun illər Salyanda Rayon Mədəniyyət Mərkəzinə rəhbərlik etmiş Əlizadə Əliyev 17 noyabr 2022-ci ildə, ömrünün 74 yaşında dünyasını dəyişib.

Əlizadə Abı oğlu Əliyev 23 fevral 1948-ci ildə Salyanda dünyaya göz açıb. İlk gənclik yaşlarından incəsənətə maraq göstərib. Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki ADMİU) təhsil alıb. O, sənət dostu, Əməkdar mədəniyyət işçisi Cahangir Qaraşovla birgə 1973-cü ildə Salyanda kukla teatrını yaradıblar.

Ə.Əliyev ömrünün əsas hissəsini Salyanın teatr mühitinin, mədəni həyatının inkişafına həsr edib. O, təkcə mədəni təşkilatçı olmayıb, eyni zamanda mədəniyyəti tədqiq və təbliğ edənlərdən olub.

Uzun illər Əlövsət Quliyev adına Salyan rayon Mədəniyyət evinə, sonralar isə rayon Mədəniyyət Mərkəzinə rəhbərlik edib. Bu mədəniyyət ocağında “Güzgü” adlı satirik miniatür teatrını yaradıb. Ə.Əliyevin rəhbərliyi ilə rayon Mədəniyyət Mərkəzinin əhalinin asudə vaxtının səmərəli təşkili məqsədilə keçirdiyi konsert proqramları, nümayiş olunan tamaşalar sakinlər tərəfindən rəğbətlə qarşılanıb. O, göstərilən bir sıra tamaşalarda səhnəyə çıxaraq məharətli aktyor kimi də özünü təsdiq edə bilib.

Ə.Əlizadə Salyanın ictimai-mədəni həyatında mühüm xidmətləri olmuş aşıq Pənah Pənahov, Qurbanxan Sadıqov, Aşıq Bəylər, görkəmli xanəndə Qulu Əsgərov və digərlərinin tanınıb təbliğ edilməsi üçün əlindən gələni əsirgəməyib.

Təcrübəli mədəniyyət işçisi fəaliyyəti dövründə ayrı-ayrı təşkilatların diplom və fəxri fərmanlarına layiq görülüb.

Allah rəhmət eləsin.

## Şuşalı məşhur xanəndə haqqında kitab təqdim olundu

Beynəlxalq Muğam Mərkəzində noyabrın 28-də “Salam, Məşədi” adlı kitabın təqdimat mərasimi keçirildi. Mərkəzin nəşrləri seriyasından işıq üzü görən kitab əslən Şuşadan olan xanəndə Məşədi Məhəmməd Fərzəliyevin 150 illiyinə həsr edilib.

Təqdimatdan öncə iştirakçılar BMM-in foyesində xanəndənin büstü önünə tər çiçəklər qoyaraq xatirəsini yad etdilər.

“Dəyirmi masa” layihəsi çərçivəsində təşkil edilən təqdimatda ədəbi tənqidçi Əsəd Cahangir çıxış edərək kitabın ərsəyə gəlməsi və müəllif Gülhüseyn Kazımlının tədqiqatçı kimi fəaliyyətindən söz açdı. Bildirdi ki, M.M.Fərzəliyev 1872-ci ildə Şuşada anadan olub, görkəmli ifaçı və müəllim Xarrat Qulunun məktəbində yetişib. Bir müddət Gəncədə yaşayıb. 1929-cu ildə Vladiqafqaz, Tiflis və başqa şəhərlərdə, Avropanın bir sıra ölkələrində qastrolda olub, daha sonra Türkiyəyə gedib və ömrünün sonuna, 1962-ci ilə qədər qardaş ölkədə yaşayıb, aktiv musiqiçi həyatı keçirib. Tarzən Hüseyn bəy Qasımla birgə “Azərimüzik heyəti” adlı kollektiv yaradıb. Bu heyətdə 20-30 nəfər xanəndə, aktyor, qiraətçi və s. kimi sənət adamları yer alıb. Onlar böyük proqramla İstanbuldan başlayaraq Misirə qədər geniş coğrafiyada konsertlər verib, Azərbaycan musiqisini təbliğ ediblər.




Əməkdar incəsənət xadimi, xanəndə Aqil Məlikov M.M.Fərzəliyevin ifaçılıq xüsusiyyətləri, Azərbaycan muğam sənətinin inkişafında xidmətlərindən söz açdı. Xalq artisti, kitabın ön söz müəllifi Sərdar Fərəcov qeyd etdi ki, M.M.Fərzəliyev xüsusi istedada, güclü səs diapazonuna malik xanəndə kimi şöhrət qazanıb. Kitabda tarixi faktlar, nadir fotolar, dövrümüzün muğam ustadlarının fikirləri və s. əksini tapıb. Xanəndənin “Sport-Rekord”, “Pate” firmalarındakı ifalarının 1912-ci ildəki kataloqu kitabın elmi məziyyətini daha da artırır. Nəşr xanəndənin repertuarı haqqında dolğun təəssürat yaradır.

Professor Abbasqulu Nəcəfzadə, Əməkdar artist, tarzən Valeh Rəhimov, kitabın redaktoru Kənan Hacı nəşri musiqi mədəniyyətimizin araşdırılmasına mühüm töhfə kimi qiymətləndirdi. “Şüştər” muğamının mahir ifaçısı kimi muğam tarixində iz qoyan xanəndənin irsinin araşdırılmasının önəmindən bəhs olundu. Bildirildi ki, kitabda tədqiqatçı-jurnalist, araşdırma qrupunun üzvü Dilqəm Əhməd tərəfindən xanəndəyə aid Türkiyə arxivlərində aşkar edilmiş sənədlər, həmçinin tanınmış sənət xadimlərinin ustadın irsi haqqında düşüncələri ilə tanış ola biləcəklər.

Təqdimatda xanəndənin Azərbaycan Dövlət Səs Yazıları Arxivində aşkarlanan ifaları səsləndirildi. Sonra xanəndələr – Əməkdar incəsənət xadimi Aqil Məlikov, Əməkdar artist Sevinc Sarıyeva, Ağakərim Nafiz və gənc xanəndə Daşqın Kürçaylının ifasında konsert proqramı təqdim olundu.

**Lalə Azəri**

## Coğrafi göstəricilər tarixi-mədəni irsdən qaynaqlanır

### Ölkəmiz Antalyada simpozium və sərgidə təmsil olunub

Türkiyə Patent və Əmtəə Nişanları Qurumu (Türkpatent), Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Gürcüstanın Milli Əqli Mülkiyyət Mərkəzinin (Sakpatenti) təşkilatçılığı, Dünya Əqli Mülkiyyət Təşkilatının (DƏMT) dəstəyi ilə 24-25 noyabr tarixlərində Antalya şəhərində coğrafi göstəricilər mövzusunda regional simpozium və sərgi keçirilib. Bu barədə Əqli Mülkiyyət Agentliyindən məlumat verilib.




Simpoziumun açılış mərasimində Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanovun videomüraciəti nümayiş etdirilib.

Müraciətdə vurğulanıb ki, xalqların mədəni müxtəlifliyinin tanınması və qorunub saxlanılması, onların mədəni ifadə formalarının “mədəni kapital” mənbəyi kimi təbliği hər zaman yaradıcılığın stimullaşdırılmasına və əqli mülkiyyət xəzinəsinin innovasiyalarla zənginləşməsinə xidmət edib. Diqqətə çatdırılıb ki, sərgidə nümayiş olunan Azərbaycanla bağlı coğrafi göstəricilərin (brendlərin) nümunələri tarixi-mədəni keçmişimizdən qaynaqlanaraq, Azərbaycan adət-ənənələrini, müasir mərhələdə Azərbaycan xalqının əqli mülkiyyətinin varisliyini və davamlılığını təqdim edir.

Simpoziumun açılışında Türkpatentin rəhbəri Cemil Başpinar, Sakpatentinin rəhbərinin müavini Nino Çikovani, DƏMT-nin Keçid iqtisadiyyatı və inkişaf etmiş ölkələr departamentinin direktoru Habip Asan çıxış ediblər.

10-dan artıq ölkənin nümayəndələrinin qatıldığı tədbirdə Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin üzvü Sənan Tapdıqov təqdimatla çıxış edib. Təqdimatda qeyd olunub ki, Azərbaycanın bölgələrinə məxsus qida məhsulları, kənd təsərrüfatı məhsulları, özündə ən qədim adət-ənənələri əks etdirən müxtəlif sənətkarlıq nümunələri ölkəmizdən çox-çox kənarlarda geniş tanınıb. Azərbaycanın 30 ilə yaxın erməni işğalı altında qalan ərazilərinin talan edildiyi, azad olunmuş ərazilərdə coğrafi göstəricilərin qorunmasının xüsusi əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb. Bildirilib ki, artıq bu istiqamətdə işlərə başlanılıb və ilk olaraq bu il məşhur “Ağdam” şərabı qeydiyyata alınıb.

Simpozium çərçivəsində təşkil olunan sərgidə ölkəmizə məxsus coğrafi göstəricilər (“Sirab”, “Badamlı” suları, “Meysəri”, “Ağdam” şərabları, Şəki halvası) təqdim edilib, UNESCO-nun siyahısına daxil edilmiş Azərbaycan xalçası, kəlağayı sənəti kimi qeyri-maddi mədəni irs nümunələri barədə məlumat verilib.

## Fazil Güneyin “Qara qan” romanının yenilənmiş nəşrinin təqdimatı keçirilib

Yazıçı-publisist, Əməkdar jurnalist Fazil Güneyin Qarabağ münaqişəsindən bəhs edən “Qara qan” trilogiyasının yenilənmiş 5-ci nəşri işıq üzü görüb. Noyabrın 29-da Azərbaycan Yazıçılar Birliyində kitabın təqdimatı keçirilib.

Əvvəlcə Əməkdar elm xadimi Tofiq Məlikli kitab haqqında danışaraq, onun milli-mənəvi dəyərlər baxımından çox qiymətli bir əsər olduğunu vurğulayıb və hər kəsə əsəri oxumağı tövsiyə edib.

AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri Şahin Fazil kitab haqqında təəssüratlarını bölüşərək, Fazil Güneyin yaradıcılığından söhbət açıb. Bildirib ki, F.Güney Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsil aldığı vaxtlardan bədii yaradıcılığa başlayıb. Suriya, İraq və Liviyada hərbi və mülki tərcüməçi kimi çalışdığı dövrdə də yaradıcılığa vaxt tapıb.

Əməkdar incəsənət xadimi, yazıçı-dramaturq Firuz Mustafa diqqətə çatdırıb ki, XX əsrin sonlarında Azərbaycan ictimai-siyasi mühitində baş verən hadisələr, müstəqillik ab-havası Fazil Güneyin yaradıcılıq istiqamətini daha çox jurnalistikaya yönəldib. 1991-ci ilin əvvəlində yaradılan




“Assa-İradə” Azərbaycan Beynəlxalq Xəbər Agentliyinin, 1997-ci ildən ingiliscə “AzerNews” qəzetinin təsisçisi və baş redaktoru, “Azeri Observer” jurnalının direktoru olan Fazil Güney Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün səylərini əsirgəməyib. Qarabağ münaqişəsindən bəhs edən, müasir Azərbaycan reallıqlarını əks etdirən yenilənmiş “Qara qan” tarixi romanı ədəbiyyat tariximizdə öz layiqli yerini tutmağa iddialı əsərdir.

Azərbaycan Tibb Universitetinin professoru Nadir İsmayılov, diplomat, filologiya üzrə fəlsəfə doktoru Tofiq Abdullayev, filologiya elmləri doktoru, Ali Attestasiya Komissiyasının şöbə müdiri Asif Rüstəmli də fikirlərini bölüşüblər.

Qeyd olunub ki, Fazil Güney “Qara qan” romanı üzərində 30 il çalışıb. Yazıçı uzun illərdən bəri davam edən yaradıcılıq axtarışlarının yekunu olaraq maraqlı bir əsəri oxucuların ixtiyarına verib. Romanda döyüş səhnələri canlı və inandırıcı boyalarla qələmə alınıb. Roman sevgi və ismət sınağı ilə qarşı-qarşıya qalmış Aysunun əsirliyi fonunda Qarabağ savaşının geniş və dərin mənzərəsini əks etdirir.

Çıxışlarda romanın bədii-publisistik əhəmiyyəti vurğulanıb, vətənpərvərlik, ana torpağa məhəbbət və yurd təəssübkeşliyi ruhunda yazıldığı qeyd olunub. Diqqətə çatdırılıb ki, roman insanların haqsız olaraq zülm və işgəncələrə məruz qalması, doğma yurdunu, ev-eşiyini itirməsi fonunda müharibənin doğurduğu mühiti, əsirlik əzabı çəkən insanların düşüncə tərzini, zülmə mərdliklə sinə gərdiklərini, habelə neofaşizmlə müqayisə edilə biləcək erməni faşizminin insanlığa böyük təhlükə olduğunu açıq-aydın göstərir. Yazıçının Uzaq Sibirdən Aralıq dənizinədək böyük bir ərazidə məskunlaşmış qədim bir millətin övladlarını başımıza gələnlərdən xəbərdar etməkdən ötrü hərbi-siyasi, tarixi və məhəbbət süjeti üstündə qurulmuş romanı maraqlı, oxunaqlı və bitkin təəssürat oyadır.

## Şuşaya gedən yolumuz...




Azərbaycan ədəbiyyatı və bütövlükdə Azərbaycan mədəniyyəti əsrlər boyu görkəmli şəxsiyyətləri ilə tanınıb. Onların bir çoxunun həyat və yaradıcılığı Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin ekspozisiyasında təbliğ olunur. Azərbaycan tarixi, ədəbiyyatı və mədəniyyəti ilə bilavasitə bağlı olan görkəmli şəxsiyyətlərin arasında qarabağlı şair və yazıçıların da özünəməxsus yeri var. Xalqımızın Qarabağ həsrətinə son qoyan Vətən müharibəsindəki tarixi Zəfərdən sonra, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Şuşa şəhərinin “Azərbaycanın mədəniyyət paytaxtı” elan edilməsi, 2022-ci ilin “Şuşa İli” kimi tarixə düşməsi Qarabağın, Şuşanın mədəniyyətimizə, ədəbiyyatımıza bəxş etdiyi böyük şəxsiyyətlərin də ruhuna ehtiramın təzahürüdür.

Akademik Rafael Hüseynov “Üçqat əziz” məqaləsində belə qeyd edir: “Bu gün Şuşa keçmişlərdən tanınıb-bilinən Şuşa deyil. Bu gün Şuşa Azərbaycandır”.

Vətənimizin işğal olunmuş torpaqlarında olmasam da, hələ tələbəlik illərindən mən də yaşıdlarımla birgə onun ağrı-acısını hiss etmişəm. İllər sonra isə həmin doğma torpaqların azad edilməsi sevincini yaşamaq bizlərə nəsib oldu. Həmin sevinc dolu duyğuları bu günlərdə, 22 noyabrda Şuşaya ilk dəfə etdiyim səfər zamanı yenidən yaşadım.

Bəlkə də gördüklərimin və duyduqlarımın sözlə ifadəsi o qədər də təsirli olmayacaq, amma doğma yurdunu, Vətən torpağını sevən hər bir azərbaycanlı kimi deyə bilərəm ki, bu duyğuları təkrar yaşamaq, həqiqətən də, əvəzolunmaz idi. Şuşaya gedən yol boyunca bu sevinc hissləri ilə yanaşı, vaxtilə bu torpaqları məcburi olaraq tərk etmiş həmvətənlərimizin çəkdikləri ağrı-acıları da yaşadım. Bax elə buna görə də Zəfər yolunun yolçusu olmaq heç də asan deyil. Çünki bu yolda həm sevinc, həm də kədəri eyni anda yaşayırsan. Bu gün biz ona görə qürurluyuq ki, torpaqlarımız azad olunub, həm də kədərliyik, çünki bu torpaqların azad olunmasında şəhidlər verdik, ancaq eyni zamanda əminik ki, indi torpaq uğrunda gedən cəmi şəhidlərimizin ruhu şaddır.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin “Şuşa İli”nə həsr olunmuş qrant müsabiqəsinin qaliblərindən biri – “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi Şuşaya səfərimizin əsas səbəbkarı oldu. Birliyin təşkilatçılığı ilə Şuşada keçirilən “Tarixi yerlər və abidələr” IV Beynəlxalq Simpoziumu hər birimizdə xoş və unudulmaz təəssürat yaratdı.

Simpoziumda 70-dən çox alim və tədqiqatçı Şuşanın tarixi-mədəni irsi haqda məruzə ilə çıxış etdi. Bülbülün Şuşadakı ev-muzeyində təşkil olunan tədbirdə Türkiyə, İtaliya, Şimali Makedoniya, Gürcüstan, İran və Rusiyadan da tədqiqatçılar iştirak edirdilər. Təşkilat komitəsinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli açılış nitqindən sonra muzeyin direktoru Fəxrəddin Hacıbəyli iştirakçıları salamladı. Tarix elmləri doktorları, professorlar Şikar Qasımov, Eynulla Mədətli, professor, sənətşünaslıq doktoru Kübra Əliyeva, İtaliyadan bərpaçı-memar, professor Luici Skrinzi, Şimali Makedoniyadan antropoloq, professor Rubin Zemonun çıxışları dinlənildi.

Simpozium bir daha sübüt etdi ki, Azərbaycanın igid və qəhrəman övladlarının qanı bahasına alınan torpaqlarımızı qorumaq, habelə buradakı maddi mədəni sərvətlərimizin təbliğini və tədqiqini təşkil etmək, həqiqətən də, son dərəcə zəruri və gərəklidir.

Şuşa şəhərinə səfər bir gün nəzərdə tutulduğu üçün simpoziumun digər məruzəçilərinin çıxışları videolentə alınmışdı və Şuşa səfəri zamanı onları “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sosial media səhifələrindən izləmək imkanımız oldu.

Yol boyu bizə Şuşa haqqında məlumat verən AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun tarix üzrə fəlsəfə doktoru, dosent Pərvin Ahənçinin söylədiklərini də böyük maraqla dinlədik. 1992-ci ildə Şuşadan ayrılan Pərvin xanımın da bizim kimi buraya ilk səfəri idi. Onun bəzən titrək səsindən, bəzən də özündən asılı olmayan sevinc və kədərini ifadə edən gizli göz yaşlarından keçirdiyi hissləri duya bilirdik.

Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərinin yaranması, inkişafı və yüksəlişi XVIII əsrin birinci yarısında Qarabağ xanlığının əsasını qoyan Pənahəli xan Cavanşirin adı ilə bağlıdır. Nizami muzeyinin ekspozisiyasında Pənahəli xanın üzərində müqəddəs “Qurani-Kərim”dən ayələr yazılmış “Gülləbatmaz” köynəyi və XVIII əsr Qarabağ xanlığına məxsus fərmanlar mühafizə olunur. Eyni zamanda Molla Pənah Vaqifin məqbərəsinin maketi sərgilənir, Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Fatma xanım Kəminə, Nəcəf bəy Vəzirov, Firidun bəy Köçərli, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Üzeyir Hacıbəyli və başqalarının həyat və yaradıcılığını əks etdirən guşələr təqdim olunur.

Azərbaycan ədəbiyyatının və mədəniyyətinin işıqlı simalarını xatırlatmağım əbəs deyil. Azərbaycanın bir çox yaradıcı və görkəmli şəxslərinin Nizami muzeyinin ekspozisiyasında sərgilənməsinə baxmayaraq, sözsüz ki, Şuşa da öz torpağının yetirmələri üçün qəribsəyib. Səbirsizliklə “Şuşa İli”ndə muzeyin Xurşidbanu Natəvan adına Qarabağ filialının yenidən qurulması və bərpasının şahidi olacağımız günü gözləyirik. Bu baxımdan Şuşada gəzdiyimiz Cıdır düzü və Molla Pənah Vaqifin məqbərəsi, ikimərtəbəli karvansara, Yuxarı və Aşağı Gövhər ağa məscidləri, Güllələnmiş heykəllər memorialı, Natəvanın evinin qalıqları, Gəncə qapısı və qala divarları ilə tanışlıq maraqlı idi. Cıdır düzü... Həqiqətən də, dedikləri qədər, təsvir etdikləri qədər var imişsən.

Ədəbiyyatımızın, tariximizin hər yaralı səhifəsini Nizami muzeyinin ekspozisiyasında təqdim etdikcə ürəyimiz sızlayırdı. İndi Şuşada aparılan yenidənqurma və bərpa işləri ümidverici və sevindiricidir. Bu düşüncələr içərisində hər addımbaşı qeyri-ixtiyari olaraq şəhidlərimizi xatırlayırdıq. Gözüyaşlı analarımızın fəryadı gözlərimiz önündə canlanırdı. Analar ürəklərindəki ağrı-acını göz yaşları ilə toxtadır, təskinlik tapırlar. Amma atalar bu ağrını çox vaxt səssiz və içdən yaşayırlar. Tədbir iştirakçıları arasında çıxış edən şəhid ataları – Ağsu rayonu Gəgəli kəndidən Əli İbişov, Pərviz Quliyev və Aqil Süleymanov hamımızı kövrəltdi. O an onların göz yaşları ürəklərinə axırdı. Onlar da bizim kimi bu yerləri həm fəxrlə, həm də ürək sızıltısı ilə seyr edirdilər. Amma fərq onda idi ki, düşmən tapdağında olan torpaqlarımıza ilk olaraq onların övladlarının ayağı dəymişdi. Şuşanın hər daşı, hər qarışı, hətta sıldırım dağları belə şəhidlərimizi xatırladırdı.

Həmkarlarım – filologiya üzrə fəlsəfə doktorları Nəzmiyyə Yigitoğlu və Gülnar Əqiq ilə birlikdə etdiyimiz bu səfər hər birimizin yaddaşında silinməz izlər qoydu.

Şuşadan doymaq əsla mümkün deyil, xüsusən bir günün qonağı olub doymaq inandırıcı deyil. Amma yenə də olsun, bu bir gündə doğma, müqəddəs diyarın - Şuşanın ətrini sanki içimizə çəkmək istəyirdik.

*Doğma yurdum,*
*gözəl Şuşam.*
*Fəsil-fəsil görüb səni,*
*Doyum-doyum gəzib*
*dağı, göy çəməni,*
*yenə səndən doymamışam...*
*(Rəsul Rza)*

Və bu uzun yolun yorğunluğunu əsla duymadıq. Çünki həm Şuşaya yol alanda, həm də doğma Bakımıza qayıdanda yolboyu Şuşa təəssüratları ilə yaşayırdıq. Elə həmin hisslərlə də diləyimiz budur ki, Şuşaya gedən yolumuz axarıncı olsun!...

**Sevinc Ayazqızı**
**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin əməkdaşı**

# Böyük sənətin işıqlı memarı

XX əsrin ikinci yarısında Azərbaycan memarlığı yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu dövrdə yenilikçi, səmərəli təklif və ideyaları ilə tanınan, yüksəkixtisaslı kadrların hazırlanmasında əməyi olan sənətkarlardan biri də AMEA-nın müxbir üzvü, Əməkdar inşaatçı, professor Ənvər Qasımzadə olub. Bu il onun anadan olmasının 110-cu ildönümüdür.

Ənvər Əli bəy oğlu Qasımzadə 12 fevral 1912-ci ildə Salyan şəhərində dünyaya göz açıb. Atası Əli bəy Azərbaycanda rus dili və ədəbiyyatı üzrə ilk müəllimlərdən olub, maarif və mədəniyyətə böyük maraq göstərib. Övladlarını da bu ruhda tərbiyə edib. O, həmçinin 1919-cu ildə əsası qoyulan Bakı Dövlət Universitetinin təşkilatçılarından biridir. Onu da qeyd edək ki, Əli bəy Qasımovun böyük rus ədibi Lev Tolstoyla maraqlı yazışması olub. Bir neçə dəfə Yasnaya Polyanada yazıçı ilə görüşüb.

Ənvər Qasımzadə orta təhsilini Bakı Müəllimlər Seminariyasının nümunəvi məktəbində alır. Sonra Azərbaycan Sənaye Texnikumunun İnşaat şöbəsində oxuyur. Təhsilini başa vurur və göndərişlə Azərbaycan Sənaye İnstitutuna daxil olur. 1936-cı ildə mühəndis-memar ixtisası üzrə ali təhsilini başa vurur.

O, hələ tələbə ikən, 1934-cü ildən "Azərdövlətlayihə" təşkilatında işə düzəlir. Eyni zamanda



Ənvər Qasımzadə (soldan birinci)

Bakı İnşaat Texnikumunda dərs deyir. 1941-ci ildə texnikumun direktoru təyin edilir.

Həmin il Böyük Vətən müharibəsi başlayır. Ənvər Qasımzadə könüllü zabit hazırlığı kursuna yazılır. 1942-ci ilin aprelində cəbhəyə yollanır, üç il ərzində Şimali Qafqazdan – Terek sahillərindən Berlinə qədər döyüş yolu keçir. Sinəsini "Qırmızı bayraq", "Qırmızı ulduz", I və II dərəcəli "Böyük Vətən müharibəsi" orden və medalları bəzəyir.

1946-cı ilin iyununda Azərbaycan hökumətinin müraciəti ilə hərbi xidmətdən geri çağırılır və respublika Nazirlər Sovetinin Memarlıq işləri üzrə idarəsinin rəisi təyin edilir. Daha sonra Bakı Şəhər Sovet İcraiyyə Komitəsi sədrinin müavini, Dövlət Tikinti Komitəsinin sədri, Dövlət Plan Komitəsi sədrinin birinci müavini vəzifələrində çalışır.

Bu illər ərzində Ə.Qasımzadə Azərbaycanda tikinti proseslərini yüksək sənaye səviyyəsinə qaldırılmasına, milli memarlıq sənətinin inkişafı sahələrində böyük işlərin həyata keçirilməsinə diqqətlə yanaşır. Memarlıqda tarixi irsin, milli çalarlar və ornamentlərin geniş tətbiq olunması üçün səylər göstərir. Calışır ki, müasir Azərbaycan memarlığında yüzillərlə toplanıb qalmış tarixi irs, milli çalarlar, ornamentlər geniş tətbiq olunsun və özünəməxsusluğunu itirməsin.

Ə.Qasımzadə 1959-cu ildə Azərbaycan Memarlar İttifaqına rəhbər, 1962-ci ildə isə Azərbaycan Politexnik İnstitutuna rektor təyin olunur. O, burada böyük uğurlara imza atır. İnstitutun genişlənməsi, yeni fakültələrin açılması üçün səylər göstərir. İnstitutun Gəncə şəhərində filialı fəaliyyətə başlayır.

Təşkilati işlərlə yanaşı, elmi tədqiqatla da məşğul olan Ə.Qasımzadə 1964-cü ildə memarlıq doktoru alimlik dərəcəsi alır, 1966-cı ildə professor, 1968-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilir. Harada işləməsindən asılı olmayaraq Ənvər Qasımzadə daim yaradıcılığa maraq göstərir. O, 60-dan çox elmi məqalənin və 7 monoqrafiyanın müəllifidir.

Görkəmli memarın layihələri əsasında Bakı, Gəncə, Daşkəsən və Xankəndidə onlarla yaşayış evi və ictimai binalar ucaldılıb. Bakının İnşaatçılar prospektində-ki binalar, Dövlət Gömrük Komitəsi və Maliyyə Nazirliyinin inzibati binaları, Bakıxanov küçəsindəki Azərbaycan Tibb Universitetinin əsas korpusları, metronun "Ulduz" stansiyası və s. onun layihələri əsasında inşa edilib.

İctimai həyatda da öz fəallığı ilə seçilən və diqqətçəkən memar bir neçə çağırış Bakı Şəhər Sovetinə və Azərbaycan SSR Ali Sovetinə deputat, Azərbaycan KP Mərkəzi Komitəsinə üzv seçilib.

Azərbaycan memarlığının təşəkkül və inkişafında əməyi olan Ənvər Qasımzadə 1969-cu ildə, 57 yaşında vəfat edib. Fəxri xiyabanda dəfn olunub.

**Savalan Fərəcov**

# Xalça ilmələrinə həkk olunan rəssam ömrü

Azərbaycanda elə bir ev, elə bir ailə yoxdur ki, incəsənətə, xalq sənətinə meyli olmasın. Bu, xalqımızın genetik koduna bağlı məsələ olduğu üçün əbədi özünü göstərəcək.

Tanınmış xalçaçı rəssam, Əməkdar mədəniyyət işçisi Fazil Qənimət oğlu Abasquluzadə də sənət zövqünü, duyğularını ilmələrə həkk edən sənətkarlardandır. 26 sentyabr 1961-ci ildə Qubadlı rayonunun Cılfır kəndində dünyaya göz açan Fazil Abasquluzadə beş yaşı olanda ailəsi həmin rayonun Seytas kəndinə köçür. Yaşının az olmasına baxmayaraq, qız-gəlinlərin, ağbirçək nənələrin toxuduğu al-əlvan xalçaların, həmin xalçaların gözoxşayan naxışları onun diqqətini cəlb edərək bu sənətə olan marağının bünövrəsini qoyur.

Həmin dövrdə Qubadlı rayonunun Teymur Müsyanlı kəndində xalçaçılıqla daha çox məşğul olurdular. Balaca Fazil fürsət tapdıqca xalçaların toxunma prosesini zövqlə seyr etməyə gedərdi. Orta məktəbi bitirdikdən sonra Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə daxil olmağı qərarlaşdırsa da, sonradan öyrənir ki, bu məktəbə daxil olmaq üçün artıq gecikib. Sənət təhsili almaq qərarından vaz keçmir, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Bədii qrafika fakültəsinə daxil olur.

Universitetdə təhsil aldığı dövrdə incəsənətin bir çox sahəsinə aid tanınmış müəllimlərdən dərs alaraq sənətin sirlərinə yiyələnir. Heykəltəraşlıqdan Xalq rəssamı, professor İbrahim Zeynalov, rəngkarlıqdan Əyyub Səfərovun məktəbini keçir. Dekorativ-tətbiqi sənəti daha dərindən mənimsəmək isə onun ən başlıca məqsədlərindən birinə çevrilir. Universiteti bitirərkən diplom işi üçün seçdiyi mövzu isə mozaikalar olur. Xarici Dillər Universitetinin yaxınlığında bir binanın divarında 30 kvadratmetrlik mozaik panno yaradır. Uğurlu diplom müdafiəsindən sonra təyinatla İsmayıllı rayonuna müəllim göndərilir. O, hərbi xidmət sıralarına yollanaraq əsgəri borcunu yerinə yetirdikdən sonra İsmayıllının Qoşakənd kənd məktəbində müəllim kimi çalışmağa başlayır. Pedaqoji fəaliyyəti dövründə məktəbin bütün bədii tərtibat işləri ilə özü məşğul olur, dərnəyə rəhbərlik edir. Rayon Təhsil şöbəsinin metodisti vəzifəsində, sonralar isə Azərbaycan Beynəlxalq Universitetinin Dekorativ tətbiqi və xalq sənəti fakültəsində müəllim kimi çalışır.



Rəssamın düşüncəsinə görə, əsərlər işləndikdən bir müddət sonra məhv olsa da, xalça üzərində öz əsərlərini həkk etsə, daha uzunömürlü olar və gələcək nəsillərə çatar. Beləliklə o, xalçaçı rəssam kimi fəaliyyət göstərməyə qəti qərar verir. İlk peşəkar əsəri Bəxtiyar Vahabzadənin 1991-ci ildə yazdığı "Şəhidlər" poeması-na çəkdiyi eskiz olur. Fazil Abasquluzadə ölkəmizdə "Şəhidlər" mövzusunda xalça üzərində əsər ərsəyə gətirmiş ilk rəssam hesab edilir. Həmin əsər B.Vahabzadənin iştirakı ilə Şəki Tarix-Diyarşünaslıq Muzeyinə təqdim olunub. Əsər bu gün də muzeydə qorunur. Rəssam Qarabağ müharibəsi şəhidlərinin də silsilə portretlərini yaradıb.

Yaradıcılığında daha çox tarixi, ədəbi mövzulara müraciət edən rəssam şairlərimizin milli yaddaşa həsr olunan şeirlərindən ilham alır, yeni sənətkarlıq nümunələri ərsəyə gətirir. O, böyük şair Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasına beş əsər həsr edib. Bu silsilədə şimallı, cənublu vətən ayrılığından, həsrətindən bəhs olunur. Rəssamın bu qəbildən xeyli əsərləri var.

Şairlərin vətənsevərlik, birlik aşılayan şeirləri rəssama daha çox ilham verir. Tək bir bənd şeir ona bəs edər ki, yeni bir möcüzəli əsər yaratsın. Məsələn, o, "Bəxtiyarla Şəhriyarın şeiri" adlı əsərini B.Vahabzadənin aşağıdakı misralarından təsirlənərək ərsəyə gətirib:

*Bizim bir kimsəyə qərəzimiz yox,*
*Biz iki qardaşıq, bir anamız var.*
*Bir böyük torpağın iki oğluyuq,*
*Orda Şəhriyaram, burda Bəxtiyar.*

Sağlığında Xalq şairi həmin əsəri görüb çox təsirlənmişdi.

Şairlərin əsərlərindən ilhamlanaraq yaratdığı xalça eskizlərindən Xalq şairi Zəlimxan Yaqubun hazırda evində qorunub saxlanılan "Bu yaşıl ağacın altı bizimdir", Nizami Gəncəviyə həsr etdiyi "Eşqdir mehrabı uca göylərin" və "Xəmsə" adlı əsərləri də maraq doğurur.

F.Abasquluzadə yaradıcılığında dini və tarixi mövzulu əsərlərə də rast gəlirik. Dini mövzulu "İsmayıl qurbanı", "Həzrəti Əli", "Fatihə", "Bərəkət duası" və s. əsərləri misal göstərə bilərik. Rəssamın hər iki mövzuda işlədiyi ən böyük əsərlərdən biri mürəkkəb kompozisiyalı, zərdüştlük dinindən bəhs edən "Odlar yurdu" əsəridir.

Rəssam tarixi mövzulu əsərlərində döyüş səhnələrini, müharibədə şəhid olmuş hərbçilərin, eləcə də tarixi şəxsiyyətlərin portretlərinin təsvirinə də üstünlük verir. Belə əsərləri arasında Ulu öndər Heydər Əliyevin Türkiyə Prezidenti Süleyman Dəmirələ hədiyyə etdiyi "Atatürk, Süleyman Dəmirəl və Heydər Əliyev" adlı portret xalça xüsusilə diqqətəlayiqdir.

F.Abasquluzadə yaradıcılığı boyunca məşhur rəssamların əsərlərinin də xalça versiyalarını hazırlayıb. Onun daha çox müraciət etdiyi rəssam isə SSRİ Xalq rəssamı Tahir Salahov olub. Daim yaradıcılıq axtarışında olan rəssam səkkiz ilə T.Salahovun 50 əsərinin xalça versiyasını ərsəyə gətirib.

Rəssamın yaradıcılığında mənzərə janrı ilə portret janrının vəhdətini də müşahidə etmək olar. Müəllifin "Dörd fəsil" adlı əsəri mövzusu və yanaşma tərzi ilə seçilən maraqlı nümunələrdəndir. Əsərdə rəssam insan ömrünün dörd fəsildən – yaz, yay, payız və qışdan necə keçməsini canlandırıb...

F.Abasquluzadənin rəsm və xalçaları ölkəmizlə yanaşı, Özbəkistan, Yaponiya, Rusiya, Almaniya, Türkiyə, İran, Koreya, İtaliya və İsraildə sərgilənib. Bir sıra əsərləri xarici ölkələrdə muzeylərdə və şəxsi kolleksiyalarda qorunub saxlanılır. Azərbaycanda Şəki Tarix-Diyarşünaslıq Muzeyi, Fransanın Luvr Muzeyi, Türkiyənin Topqapı Muzeyi, İranda M.Şəhriyarın Ev-Muzeyi də rəssamın əsərlərinə ev sahibliyi edir.

Sənətinə böyük sevgisi olan F.Abasquluzadə bu gün də yeni-yeni əsərlər yaradır. Rəssamın böyük oğlu Tural Abasquluzadə də atasının sənət yolunu davam etdirir.

**Ziyarət Cabarova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı**

# "Qarabağın tarixi" mövzusunda videoçarxlar müsabiqəsi təxirə salınıb

Mədəniyyət Nazirliyi bu ilin iyununda "Qarabağın tarixi" mövzusunda qısa videoçarxlar müsabiqəsi elan etmişdi. Müsabiqənin məqsədi Qarabağın qədim tarixi və zəngin mədəniyyətini təbliğ etmək, audiovizual sahədə fəaliyyət göstərən yaradıcı gənclərə dəstək olaraq onların fəaliyyətini stimullaşdırmaq, yeni yaradıcı qüvvələri prosesə cəlb etmək idi.

Mədəniyyət Nazirliyindən verilən məlumata görə, təqdim olunan videoçarxlar kəmiyyət və keyfiyyət baxımından qənaətbəxş olmadığına, müsabiqə şərtlərini ödəmədiyinə və tələb olunan texniki göstəricilərə cavab vermədiyinə görə müsabiqə təxirə salınıb.

Qeyd edək ki, müsabiqəyə təqdim olunan işlərə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının nəzdində fəaliyyət göstərən, bu sahənin tanınmış mütəxəssislərindən ibarət Ekspert Şurası tərəfindən baxılıb.

# Milli Kitabxanada Fikrət Əmirovun 100 illiyi ilə bağlı virtual sərgi hazırlanıb

Görkəmli bəstəkar, Azərbaycanın və keçmiş SSRİ-nin Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Fikrət Əmirovun (1922-1984) 100 illiyi silsilə layihə və tədbirlərlə qeyd olunur.

Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi, simfonik muğam janrının banisi Fikrət Əmirov rəngarəng yaradıcılıq palitrasına malik qüdrətli sənətkar kimi mədəni sərvətlər xəzinəmizə misilsiz töhfələr bəxş edib. Milli zəminə bağlı bəstəkar xalq musiqisi və muğam ənənələrini müasir musiqi texnikası ilə uğurlu şəkildə birləşdirərək, opera, balet, simfoniya, mahnı, romans və kamera-instrumental əsərlər ərsəyə gətirib.

Onun əsərləri dünyanın bir sıra ölkələrində mötəbər konsert salonlarında səslənərək müəllifinə və Azərbaycan musiqi mədəniyyətinə şöhrət qazandırıb. Bəstəkarın 100 illiyinin UNESCO-nun 2022–2023-cü illər üzrə yubileylər proqramına daxil edilməsi Fikrət Əmirov sənətinə beynəlxalq miqyasda verilən yüksək qiymətin təzahürüdür.

Sənətkarın yubileyi münasibətilə Milli Kitabxananın əməkdaşları tərəfindən "Fikrət Əmirov – 100" adlı virtual sərgi hazırlanıb. Virtual sərgidə rəsmi sənəd, fotolar, mükafatları, əsərləri, Fikrət Əmirovun zəngin yaradıcılığı haqqında kitablar və dövri mətbuat səhifələrində dərc olunan məqalələr nümayiş olunur.

## Xatirə təqvimi — 3-6 dekabr

### Azərbaycan

**3 dekabr 1918** – Aktyor, rejissor, teatr təşkilatçısı Əbülfət Məmmədhəsən oğlu Vəli (1867-1918) vəfat edib.

**3 dekabr 1920** – Şair, qəzəlxan Ələkbər Şahid (Ələkbər Şahbaz oğlu Axundov; 1920 – 12.12.1999) anadan olub.

**3 dekabr 1937** – Əməkdar mədəniyyət işçisi, kinoşünas Natalya Borisovna Şneyer (1937–2019) anadan olub.

**3 dekabr 1996** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Məlik Yusif oğlu Dadaşov (7.6.1924 – 1996) vəfat edib. Akademik Dram Teatrında çalışıb. Rus Dram Teatrının direktoru (1989-1991) olub.

**3 dekabr 1997** – Respublika Sarayında Azərbaycan professional vokal sənətinin banisi Bülbülün 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi keçirilib. Prezident Heydər Əliyev mərasimdə çıxış edib.

**3 dekabr 2013** – UNESCO Qeyri-maddi mədəni irs üzrə Hökumətlərarası Komitəsinin Bakıda keçirilən 8-ci sessiyasında Azərbaycanın təqdim etdiyi nominasiya – "Çövkən, Qarabağın ənənəvi atüstü oyunu" təşkilatın "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs Siyahısı"na salınıb.

**3 dekabr 2020** – Əməkdar rəssam Rafael Abbas oğlu Abbasov (28.11.1943 – 2020) vəfat edib. Portretlər, süjetli tablolar, Abşeron və Naxçıvanın təbiətini tərənnüm edən mənzərələrin müəllifidir.

**4 dekabr 1979** – Xalq artisti Sona Salman qızı Hacıyeva (25.6.1907 – 1979) vəfat edib. Akademik Dram Teatrının aktrisası olub. "Bəxtiyar", "O olmasın, bu olsun", "Qızmar günəş altında", "Səhər" filmlərində çəkilib.

**5 dekabr 1906** – Xalq artisti Əşrəf Əmrah oğlu Yusifzadə (1906 – 7.3.1963) Naxçıvan MR Şərur rayonunun Sərxanlı kəndində doğulub. Bakı Türk İşçi Teatrında, Gəncə Dram Teatrında çalışıb, filmlərdə ("Səhər", "Kölgələr sürünür") çəkilib.

**5 dekabr 1912** – Əməkdar incəsənət xadimi, rəssam Sadıq Hüseyn oğlu Şərifzadə (1912 – 2.1.1986) Təbrizdə anadan olub. Əsərləri: "Səttarxan fədailəri Təbrizdə", "Sərkərdə Babəkin portreti", "Nəsiminin portreti", "M.Ə.Sabirin portreti" və s. Teatr tamaşalarına bədii tərtibat verib.

**5 dekabr 1921** – Tanınmış aktyor, Xalq artisti Həsənağa Dərya oğlu Salayev (1921 – 2.10.1981) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. "Görüş", "Onu bağışlamaq olarmı?", "Aygün" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**5 dekabr 1924** - Kinorejissor, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Şamil Fərəməz oğlu Mahmudbəyov (1924 – 20.5.1997) anadan olub. "Qaraca qız", "Romeo mənim qonşumdur", "Şərikli çörək", "Həyat bizi sınayır" və s. filmlərə quruluş verib.

**5 dekabr 1924** – Əməkdar artist Şəfiqə Qasım qızı Qasımova (1924 – 3.4. 2008) Bakıda anadan olub. Musiqili Komediya, Opera və Balet teatrlarında çalışıb, filmlərdə çəkilib.

**5 dekabr 1925** – Xalq rəssamı, Dövlət mükafatı laureatı, professor Nadir Qənbər oğlu Əbdürrəhmanov (1925 – 26.7.2008) Laçın rayonunda doğulub. "Sevimli naxışlar" "Çəltikbecərənlər", "Dağlarda bahar" və s. Azərbaycan Rəssamlar İttifaqı idarə heyətinin sədri olub.

**5 dekabr 1927** – Yazıçı, Əməkdar mədəniyyət işçisi Cəmil Adil oğlu Əlibəyov (1927 – 26.10.2014) Füzuli rayonunun Dədəli kəndində doğulub. "Azərbaycanfilm"in direktoru olub. "Həyatın özü", "İlk məhəbbət" romanları, "Gülüstanda qətl" pyesi və s. əsərlərin müəllifidir. Rus dilindən ədəbi tərcümələr edib.

**5 dekabr 1927** – Yazıçı, şair İsmayıl Abuzər oğlu Qarayev (1927 – 9.10.1989) Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində anadan olub. "Gənclik" nəşriyyatında baş redaktor işləyib.

**5 dekabr 1934** – Əməkdar artist, tanınmış pianoçu Rafiq Teyyub oğlu Quliyev (1934 – 19.8.2007) Bakıda doğulub. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru olub.

**5 dekabr 1941** – Böyük şair, dramaturq Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə; 24.10.1882 – 1941) vəfat edib. Azərbaycan ədəbiyyatında ilk mənzum dramların, tarixi-fəlsəfi pyeslərin müəllifidir. 1938-ci ildə repressiya edilərək Sibirə sürgün olunub, İrkutsk vilayətində dünyasını dəyişib.

**5 dekabr 1947** – Xalq artisti Larisa Afanasyevna Vinoqradova (1947 – 16.9.2009) Türkmənistanın Marı şəhərində anadan olub. Azərbaycan Dövlət Akademik Musiqili Teatrında çalışıb, televiziya tamaşalarında çəkilib.

**5 dekabr 2012** – UNESCO Hökumətlərarası Komitəsinin Parisdə keçirilən 7-ci sessiyasında Azərbaycanın təqdim etdiyi "Tar alətinin hazırlanması və tar ifaçılıq sənəti" nominasiyası "Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahı"ya daxil edilib.

**6 dekabr 2002** – Bakıda, Respublika Sarayında görkəmli dirijor və bəstəkar Niyazinin 90 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilib. Prezident Heydər Əliyev mərasimdə çıxış edib.

**6 dekabr 2004** – Xalq artisti, tanınmış aktyor Muxtar Həsən oğlu Avşarov (15.2.1914 – 2004) vəfat edib. Gəncə Dram, Akademik Milli Dram teatrlarında çalışıb, filmlərdə çəkilib.

**6 dekabr 2006** – Görkəmli xanəndə, Xalq artisti Baba Mahmudoğlu (Mirzəyev; 7.11.1940 – 2006) dünyasını dəyişib. Opera tamaşalarında ("Leyli və Məcnun", "Aşıq Qərib", "Əsli və Kərəm" və s.) əsas partiyaları ifa edib.

**6 dekabr 2017** – UNESCO Hökumətlərarası Komitəsinin 12-ci sessiyasında (Koreya Respublikası) Azərbaycanın təqdim etdiyi "Mədəni kimliyin hissəsi olan dolmanın hazırlanma və paylaşma ənənəsi" nominasiyası "Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahı"ya salınıb.

**6 dekabr 2021**– Tanınmış tarixçi alim, professor Aydın Hüseynağa oğlu Balayev (19.11.1956 – 2021) vəfat edib.

### Dünya

**3 dekabr** Beynəlxalq Əlillər Günüdür. BMT Baş Assambleyasının 1992-ci il 14 oktyabr tarixli qətnaməsi ilə təsis olunub.

**3 dekabr 1927** – Amerika estrada müğənnisi və aktyor Endi Vilyams (Andy Williams – Howard Andrew Williams; 1927-2012) anadan olub.

**3 dekabr 1930** – Fransız kinorejissoru, aktyor, ssenarist Jan-Lük Qodar (Jean-Luc Godard; 1930 – 13.9.2022) anadan olub. Fransa kinosunda "yeni dalğa"nın banilərindən biridir. Filmləri: "Kiçik əsgər", "Motsart – həmişəlik", "Birnəfəsə", "Ağılsız Pyero" və s.

**4 dekabr 1875** – Avstriyalı ekzistensialist şair Rayner Maria Rilke (Rainer Maria Rilke; 1875–1926) anadan olub.

**4 dekabr 1896** – Rus şairi, yazıçı Nikolay Semyonoviç Tixonov (1896-1979) anadan olub. Azərbaycan şairlərinin əsərlərini rus dilinə tərcümə edib.

**4 dekabr 1922** – Fransız aktyoru Jerar Filipp (Gerard Philipe; 1922-1959) anadan olub. Filmləri: "Fanfan-zanbaq", "Böyük manevrlər", "Təhlükəli əlaqələr" və s.

**5 dekabr 1791** – Dünya şöhrətli Avstriya bəstəkarı Volfqanq Amadey Motsart (Wolfgang Amadeus Mozart; 27.1.1756 – 1791) vəfat edib.

**5 dekabr 1901** – Amerikalı multiplikasiya rəssamı, rejissor, prodüser Uolt Disney (Walter Elias "Walt" Disney; 1901-1966) anadan olub. Cizgi filmləri üzrə 26 dəfə "Oskar" mükafatına layiq görülüb.

**6 dekabr 1841** – Fransız rəssamı, impressionizmin banilərindən biri Frederik Bazil (Jean Frederic Bazille; 1841–1870) anadan olub.

**Hazırladı: V.Orxan**

№89 (1962)
2 dekabr 2022
www.medeniyyet.az

# Milli musiqi sənəti dünya xalqlarının irsində

## Türkmənistanda keçirilən beynəlxalq festivalda ölkəmiz də təmsil olunub





28-30 noyabr tarixlərində Aşqabadda Türkmənistan Prezidenti Serdar Berdiməhəmmədovun təşəbbüsü və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Milli musiqi sənəti dünya xalqlarının irsində" adlı beynəlxalq festival və konfrans keçirilib. Türkmənistan Dövlət Mədəniyyət Mərkəzinin "Mükamlar" sarayında gerçəkləşən tədbirə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Tatarıstan (Rusiya Federasiyası), Özbəkistan və İrandan rəsmi nümayəndələr, mədəniyyət, incəsənət xadimləri qatılıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təqdimatı əsasında ölkəmizi festivalda Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) təmsil edib. Tədbirdə AMM-in inzibatçısı Yusif Məmmədov, azərbaycanlı ifaçılar Vahid Əliyev, Fatimə İsgəndərova və Özbəkistanda yaşayan saz ifaçısı İlham Abdullayev iştirak ediblər.

Mərkəzdən verilən məlumata görə, açılış mərasimində Türkmənistan Prezidenti Serdar Berdiməhəmmədov iştirakçılara təbriki oxunub.

Sonra "Mükamlar" sarayının səhnəsində konsert olub. Zəngin mədəni proqramda müxtəlif xalqların musiqi əsərlərinin rəngarəngliyi, ifaçılıq sənətinin nümunələri nümayiş olunub.

Azərbaycan və Türkiyə musiqi kollektivlərinin, Qızılorda vilayəti (Qazaxıstan), A.Curayev adına Tacikistan Dövlət Filarmoniyasının, Xarəzm Musiqili Dram Teatrının (Özbəkistan) xalq musiqisi ansamblларının, Qırğızıstandan "Etno-Oş" folklor-etnoqrafiya qrupunun çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. "Türk dünyası" musiqi və rəqs qrupunun sənətçiləri tamaşaçılara gözəl türk rəqsləri təqdim ediblər. Azərbaycan sənətçiləri xalq mahnılarımızı, saz havalarını ifa ediblər.

"Milli musiqi sənəti dünya xalqlarının irsində" beynəlxalq festival və konfransının təntənəli bağlanış mərasimində iştirakçılara diplomlar təqdim edilib, Türkmənistan incəsənət ustalarının konserti keçirilib.

# Vyanada Tofiq Quliyev və Emin Sabitoğlunun xatirəsinə həsr edilmiş konsert

Avstriyanın paytaxtı Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) görkəmli bəstəkarlarımız Tofiq Quliyevin (1917-2000) 105 və Emin Sabitoğlunun (1937-2000) 85 illik yubileylərinə həsr olunmuş konsert keçirilib.





Mərkəzin rəhbəri Leyla Qasımova 2022-ci ilin yubiley və əlamətdar hadisələrlə zəngin olduğunu bildirib. Qeyd edilib ki, Tofiq Quliyev və Emin Sabitoğlunun yubileylərinin birgə keçirilməsinin səbəbi onların bir çox cəhətdən oxşar xüsusiyyətlərə malik olmaları ilə əlaqədardır. L.Qasımova tədbirin təşkilində göstərilən dəstəyə görə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə (ADMİU) təşəkkürünü bildirib.

Universitetin rektoru Ceyran Mahmudova hər iki bəstəkarın həyat və yaradıcılığından söz açıb. Qeyd edilib ki, klassik musiqi janrlarında sanballı əsərlər bəstələyən Tofiq Quliyev və Emin Sabitoğlunun mahnıları və filmlərə yazdıqları musiqilər xüsusilə məşhurlaşdırıb və sevdirib.

C.Mahmudova atası Emin Sabitoğlunun yaradıcılığı haqqında kitabları AMM-yə hədiyyə edib.

Tədbirin bədii hissəsində ADMİU-nun Estrada sənəti kafedrasının tələbələri Türkay Məlikova və Xasay Şıxıyev ölməz bəstəkarların mahnılarından ibarət konsert proqramı ilə çıxış ediblər. Onları fortepianoda həmin kafedranın konsertmeysteri Rəcəb Zeynalov müşayiət edib. Konsertdə bəstəkarların dillər əzbəri olan mahnıları və kino musiqiləri səslənib.

## Azərbaycan filmləri "Moskva premyerası"nda

Noyabrın 29-dan dekabrın 5-dək Rusiya paytaxtında postsovet ölkələrinin iştirakı ilə IV Beynəlxalq "Moskva premyerası" kinofestivalı keçirilir.




Festivalın proqramına Azərbaycan kinosunun 3 nümunəsi – "Bir cənub şəhərində", "Əlvida, cənub şəhəri", "İstintaq", həmçinin Azərbaycan-Rusiya istehsalı olan "Qobelen" və "Alisanın bir günü" (qısametrajlı) filmləri də daxil edilib.

11 ölkənin iştirak etdiyi festivalın münsiflər heyətində Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının (ARKİ) üzvü, Əməkdar incəsənət xadimi Ayaz Salayev də yer alıb.

Qeyd edək ki, "Moskva premyerası" festivalı ilk dəfə 2003-cü ildə SSRİ Xalq artisti Aleksey Batalovun rəhbərliyi ilə gerçəkləşib. Uzun aradan sonra, 2019-cu ildən festival MDB dövlətlərinin Beynəlxalq Humanitar Əməkdaşlıq Fondu ilə əməkdaşlıq zəminində bir kinoforum olaraq beynəlxalq status qazanıb. Festivalın məqsədi postsovet ölkələrinin vahid mədəniyyət və kinematoqrafiya məkanını inkişaf etdirməkdir.

# Berlində Azərbaycan-Almaniya diplomatik münasibətlərinin 30 illiyi qeyd olunub

Ölkəmizin Almaniyadakı səfirliyi noyabrın 29-da Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində "Azərbaycanda alman izləri" adlı tədbir keçirib. Səfirlikdən verilən məlumata görə, tədbir Azərbaycan və Almaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinə həsr olunub.




Tədbirdə Bundestaq üzvləri, Almaniyanın Xarici İşlər Nazirliyi və digər dövlət qurumlarının təmsilçiləri, xarici diplomatlar, Almaniyada yaşayan Azərbaycan və türk icmalarının üzvləri iştirak ediblər.

Tədbirin əvvəlində Azərbaycanın Almaniyadakı Səfirliyinin dəstəyi ilə istehsal olunmuş "Azərbaycanda alman izləri" filmi nümayiş etdirilib.

Səfir Nəsimi Ağayev çıxış edərək Almaniya ilə ölkəmiz arasında münasibətlərin tarixindən və müasir vəziyyətindən danışıb. Bildirib ki, xalqlarımız arasında əlaqələrin inkişafı XIX əsrin əvvəllərində Almaniyanın hazırkı Baden-Vürttemberq ərazisindən alman şvabların Azərbaycana köçü ilə bağlıdır. Qeyd edib ki, II Dünya müharibəsi illərində Stalin hakimiyyəti tərəfindən Mərkəzi Asiya və Sibirə deportasiya olunana kimi almanlar ölkəmizdə azərbaycanlılarla birgə mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşayıblar.

Diplomat müasir Azərbaycan-Almaniya münasibətlərinin bu zəngin tarixdən bəhrələndiyini ifadə edib. Diqqətə çatdırıb ki, Azərbaycanın Qərbi Avropa ölkələri arasında ilk səfirliyi 1992-ci ildə məhz Almaniyada açılıb.

Səfir hazırda bütün sahələrdə ikitərəfli münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb.

Almaniya Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə müvəkkili, səfir Mattias Lüttenberq iki ölkənin münasibətlərinə nəzər salıb, və qarşılıqlı əlaqələrin dinamik şəkildə inkişaf etdiyini söyləyib.

Daha sonra tədbirə Bakıdan məruzəçi qismində dəvət olunmuş tarixçi Fuad Axundov "Azərbaycanda alman izləri" mövzusunda təqdimat edib, almanların Azərbaycana köçünün tarixi aspektləri, ölkəmizdə əsası qoyulmuş alman yaşayış məskənləri, oradakı alman icmasının həyat və fəaliyyəti haqda danışıb.

Tədbirə almaniyalı professor Eva Maria Aux moderatorluq edib.

Hamburq şəhərində yaşayan və fəaliyyət göstərən azərbaycanlı musiqiçi Tural İsmayılovun yaratdığı "Anima Şirvani" Azərbaycan-alman ansamblının ifasında alman barokko musiqisi və Azərbaycan muğamının sintezi böyük maraqla qarşılanıb.

## Şərqi Avropada ən böyük planetarium

Bolqarıstanın paytaxtı Sofiyada Şərqi Avropada kosmosun tədqiqi üzrə ən böyük mərkəzə çevrilən planetariumun açılışı olub.

Planetariumun zallarında ulduzlu səmanın xəritəsi nümayiş etdirilir, kompleksin muzey eksponatları arasında meteorit fraqmentləri və kosmik uçuş aparatlarının hissələri təqdim olunur. Rəsədxanada ziyarətçilər müasir teleskoplardan istifadə edə bilirlər.

Planetariumun fəaliyyətə başlamasına həsr olunmuş tədbirdə bolqar kosmonavt Georgi İvanov da iştirak edib.



## ABŞ-da Milad bayramı hazırlıqları

ABŞ-da Milad bayramına (25 dekabr) hazırlıqlara ənənəvi olaraq bir ay əvvəldən start verilib.

Prezident Co Baydenin və ailəsinin iştirakı ilə Ağ Evin qarşısında şamağacının işıqlandırılması mərasimi keçirilib. Buradakı parkda ABŞ-ın 50 ştatını, 5 ərazisini və paytaxt Vaşinqtonu təmsil edən ümumilikdə 56 kiçik ağac işıqlandırılıb.

Bu mərasim ABŞ-ın 32-ci prezidenti Franklin Ruzveltin dövründən bu yana hər il keçirilir.

### Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 512 il əvvəl...

**2 dekabr 1510-cu ildə** Səfəvi qoşunları ilə Xorasanda hakim olan Şeybanilər (özbək) ordusu arasında Mərv döyüşü olub. Səfəvi qoşunları qalib gəliblər və Xorasan vilayəti Səfəvi imperatorluğunun tərkibinə qatılıb. Bununla Şah İsmayıl indiki İranın bütün ərazisini öz hakimiyyəti altına alıb.

### 214 il əvvəl...

**4 dekabr 1808-ci ildə** İspaniyanı işğal edən Napoleon Bonapart ölkədəki inkvizisiya məhkəməsini ləğv edib. Bu, Avropadakı sonuncu inkvizisiya məhkəməsi idi. Roma Katolik Kilsəsinin təbeçiliyində olan və dinə qarşı çıxanları mühakimə edən inkvizisiyanın ləğvi Napoleonun nüfuzunu artırdı.

### 102 il əvvəl...



**2 dekabr 1920-ci ildə** Mustafa Kamalın rəhbərliyi altındakı Türkiyə qoşunları məğlubiyyətə uğratdığı (müharibə 23 sentyabrda başlamışdı) daşnak Ermənistan dövlətini Gümrüdə təslimçi sülh sazişi imzalamağa məcbur edib. Bu sazişlə erməni tərəf Sevr müqaviləsindən (10 avqust 1920-ci ildə Antanta ilə Osmanlı arasında bağlanan müqavilədə Qars vilayətinin Ermənistana verilməsi barədə müddəa da vardı) imtina edir, üstəlik Gümrünü Türkiyəyə verməyə razılaşırdı. Lakin daşnaklar bu sazişi imzalayanda ölkədə faktiki hakimiyyəti itirmişdilər, İrəvanda sovet hakimiyyəti (29 noyabr) qurulmuşdu. Sovet Ermənistanı Rusiyanın dəstəyi ilə Gümrü sazişini rədd etsə də, bir il sonra Qars müqaviləsi (16 mart 1921) ilə Türkiyə iddialarından vaz keçdi, amma Gümrünü əlində saxlamağı bacardı.

### 95 il əvvəl...

**2 dekabr 1927-ci ildə** SSRİ kommunistlərinin (Ümumittifaq Kommunist (bolşevik) Partiyası) 15-ci qurultayı işə başlayıb. Dekabrın 19-dək sürən qurultayın qəbul etdiyi başlıca qərar kənd təsərrüfatında kollektivləşmə kursunun elan edilməsi oldu. Qurultaydan sonra SSRİ-də kolxoz quruculuğu başlandı.

### 93 il əvvəl...

**5 dekabr 1929-cu ildə** Tacikistan SSR yaranıb. Bu, Tacikistanın tarixində ilk formal dövlətçilik institutu idi. 1918-ci ildə Tacikistanın şimalında sovet hakimiyyəti qurulmuş və daha sonra bölgə Türkmənistanın MSSR-in tərkibinə daxil olmuş, Tacikistanın cənub bölgələri isə Özbəkistan SSR-in tərkibində qalmışdı. 1924-cü ildə Stalin Orta Asiyanın yeni sərhədlərini çəkdi və Tacikistan torpaqları birləşdirilərək Özbəkistan SSR tərkibində muxtar respublika statusu aldı. 1929-cu ildə Tacikistan MSSR müttəfiq respublikaya çevrildi.

### 69 il əvvəl...

**2 dekabr 1953-cü ildə** Fransanın müstəmləkəsi Laos müstəqilliyini elan edib. 1893-cü ildə Fransanın müstəmləkəsinə çevrilən Laos İkinci Dünya müharibəsində Yaponiyanın işğalı altına düşmüş, 1946-cı ildə Fransanın nəzarətinə keçmişdi.

### 51 il əvvəl...

**2 dekabr 1971-ci ildə** Ərəbistan yarımadasının şimal-şərqində yerləşən altı ərəb əmirliyinin vahid dövləti – Birləşmiş Ərəb Əmirlikləri yaradılıb. BƏƏ federativ dövlət quruluşuna malikdir, Əbu-Dabi (ölkənin paytaxtı), Dubay və Şərca daha çox inkişaf etmiş əmirliklərdir.

### 26 il əvvəl...

**2-3 dekabr 1996-cı ildə** ATƏT-in Lissabonda (Portuqaliya) keçirilən sammitinin yekununda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması barədə bəyanat qəbul edilib. Sammitin yekun sənədində nizamlanmanın üç prinsipini ehtiva edən maddə yer almışdı: Azərbaycanın ərazi bütövlüyü bərpa edilir, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət verilir, bölgənin hər iki icmasının təhlükəsizliyi təmin olunur. Ermənistan konsensus prinsipini sui-istifadə edərək, həmin maddəyə razılıq vermədi. Nəticədə bu maddə ATƏT-in sədri, İsveçrə XİN başçısı Flavio Kottinin xüsusi bəyanatı şəklində qəbul olundu.

### 14 il əvvəl...




**2-3 dekabr 2008-ci ildə** Bakıda Avropa Şurası ölkələri mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" adlı konfransı keçirilib. Azərbaycan tərəfdən konfransa İslam ölkələri də dəvət olunub. Beləliklə, ilk dəfə Avropa və müsəlman ölkələrinin mədəniyyət nazirləri bir araya gəliblər. Konfransda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə mədəniyyətlərarası dialoq üzrə "Bakı Prosesi"nin əsası qoyulub.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5078. **Sifariş:** 3446
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641